Xalqın qəzeti!

# Xalq qəzeti

№ 151 (30267) 21 iyul 2023-cü il, cümə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

## Günün xəbəri

Azərbaycanda 98 peşə təhsil müəssisəsi var. Peşə təhsil mərkəzlərinin sayı isə 14-dür. Ölkəmizdə 120 ixtisas üzrə 23 min 600 tələbə peşə təhsili alır.

# Azərbaycanda müasir peşə təhsili şəbəkəsi genişlənir

### Prezident İlham Əliyev Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzinin açılışında iştirak edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də Cəlilabad rayonunda olub.**

Dövlətimizin başçısı Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzinin açılışında iştirak edib.

Elm və təhsil naziri Emin Əmrullayev Prezident İlham Əliyevə mərkəzdə yaradılan şərait barədə məlumat verdi.

Qeyd edək ki, ölkəmizdə əmək bazarının tələblərinə uyğun kadr hazırlığında peşə təhsilinin rolu artır. Bu sahəyə göstərilən diqqət həm də müasir infrastrukturun formalaşdırılması ilə müşayiət olunur. Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzi də regional inkişaf proqramından irəli gələrək bölgədə gənclərin peşə bacarıqlarına yiyələnməsinə yeni imkanlar yaradacaq.

(ardı 2-ci səhifədə)

# Ərdoğanın fikirləri və Rusiyanın Cənubi Qafqaz iddiası

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın NATO liderlərinin Vilnus sammiti sonrası mətbuat konfransında Qarabağdakı Rusiya sülhməramlılarının səlahiyyət müddəti bitdikdən sonra onların ərazini tərk edəcəkləri ilə bağlı fikrinə Rusiyadan reaksiya gəlib. Ölkənin Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova keçirdiyi ənənəvi brifinqdə Türkiyə liderinin söylədiklərinə münasibətini açıqlayıb. Bu barədə bir qədər sonra... Hələlik isə cənab Ərdoğanın dediklərini yada salaq.**




Bəli, qardaş ölkənin dövlət başçısı azərbaycanlı jurnalistin sualını cavablandırarkən bildirib ki, Rusiya sülhməramlıları 2025-ci ilə qədər təyin olunmuş yerlərində qalacaq, həmin ildə isə bu yerləri tərk edəcəklər. Ərdoğan, həmçinin Rusiyanın bu razılaşmaya sadiq qalacağına inandığını vurğulayıb. "Qardaşım Əliyev (Prezident İlham Əliyev - red.) zatən bunu diqqətlə izləyir", – deyə Ərdoğan əlavə edib.

(ardı 3-cü səhifədə)

## Şuşada Qazançı kilsəsi



Səhifə ⇨ 9

## Axsaq atın kor nalbəndi



Səhifə ⇨ 4

## Erməni siyasətində "bir həftə" yalanı



Səhifə ⇨ 4

## Rusiya Ukrayna limanlarını blokadaya almağa çalışır



Səhifə ⇨ 9

## İlin sonunadək Macarıstana təbii qaz nəqlinə başlanılacaq

Səhifə ⇨ 7

## Mediada transformasiya: klassik jurnalistikadan çağdaş informasiya məkanına



Səhifə ⇨ 8

## Azərbaycan "yaşıl keçid"in önündə gedir

Səhifə ⇨ 7



## Laçında məşğulluq layihələri



Səhifə ⇨ 10

## "Kitabi-Dədə Qorqud"un yeni nüsxəsi aşkar edilib



Səhifə ⇨ 9

## Madam Luyonun erməni sevgisi qıcqırıb

Səhifə ⇨ 3

# Prezident İlham Əliyev Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzinin açılışında iştirak edib

(əvvəli 1-ci səhifədə)

Məlumat verildi ki, hazırda Azərbaycanda 98 peşə təhsil müəssisəsi var. Peşə təhsil mərkəzlərinin sayı isə 14-dür. Ölkəmizdə 120 ixtisas üzrə 23 min 600 tələbə peşə təhsili alır. Son üç ildə peşə qəbulu üzrə göstəricilər 30 faiz artaraq, keçən il tələbələrin sayı 19 mini ötüb. Bundan başqa, 2022-2023-cü tədris ilində 5 regionda fəaliyyət göstərən 8 peşə təhsil müəssisəsində yüksək texniki peşə təhsil səviyyəsi üzrə də tələbə qəbulu aparılıb. Hazırda respublikada 1466 tələbə yüksək texniki peşə təhsili alır. Bu təhsil səviyyəsi üzrə tələbələrin sayının 2026-cı ilə qədər 9200-ə çatdırılması planlaşdırılır.





Bildirildi ki, hazırda Lənkəran Peşə Liseyi, Texnika və Texnologiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi üçün binalar tikilir. Mingəçevir Peşə Təhsil Mərkəzinin binasının tikintisi isə başlamaq üzrədir. Eləcə də Füzuli Peşə Liseyi, Sənaye və Yüksək Texnologiyalar üzrə Sumqayıt Dövlət Peşə Təhsil Mərkəzi, Tovuz, Qax və Quba Peşə liseylərinin binalarının layihələndirilməsi aparılır. Qarabağda Kəlbəcər və Laçın peşə məktəblərinin tikintisi planlaşdırılır. Böyük Qayıdış Proqramı çərçivəsində ümumilikdə 8 peşə təhsil müəssisəsi tikilib istifadəyə veriləcək.

Dövlətimizin başçısı Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzində yaradılan şəraitlə tanış oldu.

Ən müasir infrastruktur, maddi-texniki baza ilə təchiz olunan mərkəzin ərazisində 25 sinif otağı, 3 laboratoriya, 13 emalatxana, informatika kabineti, STEAM Mərkəzi, praktiki məşğələ otağı, kitabxana, 252 yerlik akt zalı, 128 yerlik yeməkxana, idman zalları və meydançaları, avtotəmir binası, maldarlıq ferması və digər köməkçi binalar yerləşir.

Peşə Təhsil Mərkəzində qənnadıçı, şirniyyatçı, dərzi, kompüterlərin təmiri və xidməti üzrə texnik, mühasibat uçotu, qrafik dizayner, veb-dizayn və proqram təminatı, çilingər-santexnik, geniş profilli traktorçu-maşinist, elektrik montyoru, bərbər-vizajist-manikürçü, avtomobillərin təmiri çilingəri, avtomobil sürücüsü, mebel ustası istiqamətləri üzrə mütəxəssis hazırlığı aparılacaq.

Eyni zamanda, kənd təsərrüfatı mütəxəssislərinə artan tələbatı nəzərə alaraq bu sahə üzrə tədrisə xüsusi diqqət yetirilib. Müəssisədə kənd təsərrüfatı məhsullarının istehsalı üzrə fermer, bitkiçilik, heyvandarlıq və baytarlıq üzrə mütəxəssislər də hazırlanacaq.

Qeyd edək ki, son illərdə Azərbaycanda peşə təhsilinin inkişafı istiqamətində əhəmiyyətli addımlar atılıb. Prezident İlham Əliyevin 2016-cı il 20 aprel tarixli Fərmanına əsasən, Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması, peşə təhsilinin yeni çağırışlara uyğunlaşdırılması, peşə təhsil müəssisələrinin rolunun və statusunun yüksəldilməsi bu sahəyə xüsusi diqqətin təzahürüdür.

Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzinin istifadəyə verilməsi bölgələrdə gənclərin yeni tələblərə uyğun bilik və bacarıqlara yiyələnməsinə, eləcə də məşğulluq məsələlərinin həllinə xidmət edəcək.

***AZƏRTAC***

# Azərbaycan Hökuməti: Ermənistan Arazdəyəndə metallurgiya zavodunun inşasını dayandırmalıdır!

**Azərbaycan Hökuməti Ermənistan tərəfindən Naxçıvan Muxtar Respublikası ilə həmsərhəd bölgədə - Arazdəyəndə iri metallurgiya zavodunun inşasının dayandırılmasını tələb edib. Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Muxtar Babayevin adından Ermənistanın ətraf mühit nazirinə ünvanlanan məktubda bildirilib ki, Ermənistanla Azərbaycan arasındakı şərti sərhəddən bir neçə yüz metr aralıda yerləşən Yerasx qəsəbəsi (Arazdəyən) yaxınlığında həyata keçirilən və transsərhəd təsiri ola biləcək fəaliyyətlə bağlı "Transsərhəd kontekstində ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında Konvensiya"da (Espo Konvensiyası) nəzərdə tutulmuş müvafiq prosedura başlanılıb.**

Bu barədə Nazirlər Kabinetinin mətbuat xidmətindən məlumat verilib.

Xüsusi vurğulanıb ki, Espo Konvensiyasının 1-ci Əlavəsinə əsasən, metallurgiya zavodları açıq şəkildə əhəmiyyətli mənfi transsərhəd təsirə səbəb ola biləcək fəaliyyət kimi tanınır.

Espo Konvensiyasının 3.1-ci maddəsinə uyğun olaraq, Ermənistan qeyd olunan fəaliyyətin ətraf mühitə təsiri ilə bağlı Azərbaycanı xəbərdar etməyə borcludur. Lakin təsirə məruz qalan Tərəf olaraq Azərbaycan Ermənistandan bu layihə ilə bağlı heç bir bildiriş almamışdır.

Vurğulanıb ki, qeyd olunanları nəzərə alaraq, Espo Konvensiyasının 3.7-ci maddəsinə uyğun olaraq, Azərbaycan təsirə məruz qalan Tərəf kimi ilkin mərhələdə Ermənistandan layihənin mənfi transsərhəd təsiri ilə bağlı müzakirələrin aparılması məqsədilə məlumat mübadiləsinin aparılmasını tələb edir.

Eyni zamanda, Azərbaycan Hökuməti layihənin transsərhəd təsiri ilə bağlı suallar tam aydınlaşdırılana və adekvat şəkildə baxılana qədər Ermənistan tərəfindən zavodun tikintisinin dərhal dayandırılmasını tələb edib.

Məsələ ilə bağlı Birləşmiş Millətlər Təşkilatının Avropa İqtisadi Komissiyasının icraçı katibinə də müvafiq bildiriş ünvanlanıb.

***"Xalq qəzeti"***

# İqtisadi Əməkdaşlıq Təşkilatının Gömrük Xidmətləri Rəhbərləri Şurasının 9-cu iclası

**Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərində yerləşən Potensialın Gücləndirilməsi üzrə Avropa Regional ofisində İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Gömrük Xidmətləri Rəhbərləri Şurasının 9-cu iclası keçirilib.**



Hibrit formatda keçirilən iclasda Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğız, Türkmənistan, Pakistan, Tacikistan və İran gömrük xidmətlərinin nümayəndələri iştirak edir.

Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov regional əməkdaşlığın və tranzitin inkişaf etdirilməsində İƏT-in rolundan bəhs edib. Qeyd olunub ki, ölkəmizin Şərq–Qərb, Şimal–Cənub nəqliyyat dəhlizləri üzərindəki strateji mövqeyi nəzərə alınmaqla Prezident İlham Əliyevin rəhbərliyi ilə nəqliyyat və logistika sahəsində həyata keçirilən irimiqyaslı layihələr beynəlxalq ticarətin və tranzitin inkişafına münbit şərait yaradıb.

İƏT-in Baş katibinin müavini Sayed Mohsen Esperi təşkilata üzv ölkələr arasında gömrük sahəsində əməkdaşlığın gücləndirilməsinin prosedurların rəqəmsallaşdırılması və asanlaşdırılmasına, sərhədkeçmə proseslərinin sürətləndirilməsinə imkan yaradacağını diqqətə çatdırıb. Həmçinin hüquqpozmalara qarşı mübarizə, qabaqcıl bilik və təcrübələrin paylaşılması, potensialın gücləndirilməsi istiqamətində də mühüm nailiyyətlərin əldə olunacağı bildirilib.

Sonra Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırovun sədrlik etdiyi iclasın gündəliyi qəbul edilib və müzakirələr aparılıb.

Əvvəl İƏT Gömrük xidmətləri rəhbərləri Şurasının 8-ci iclasında qəbul edilən qərarlar müzakirə olunub, hesabatlar dinlənilib.

Daha sonra "Qaçaqmalçılıq və gömrük qaydalarının pozulmasına dair İqtisadi Əməkdaşlıq Təşkilatının məlumat bazası Sazişi", "Gömrük işi sahəsində qarşılıqlı inzibati yardım haqqında Saziş", "İƏT və ÜGT arasında Memorandum layihəsi və İƏT Fəaliyyət Planı", "İƏT Regionunda Elektron Məlumat Mübadiləsi", "İƏT Regionunda Gömrük məsələlərində potensialın gücləndirilməsi" ilə bağlı məsələlər müzakirə olunub.

***

Dünən Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibinin müavini Sayed Mohsen Esperi ilə görüşüb.

İqtisadi Əməkdaşlıq Təşkilatının gömrük xidmətləri rəhbərləri Şurasının Bakıda keçirilən 9-cu iclası çərçivəsində baş tutan görüşdə regional əməkdaşlıq, beynəlxalq tranzitin inkişafı, gömrük xidmətləri arasında əlaqələrin gücləndirilməsinə dair məsələlər müzakirə olunub. Hazırda təşkilata sədrlik edən Azərbaycan ilə İƏT arasındakı əməkdaşlıqdan məmnunluqla bəhs edilib və ölkəmizin sədrliyi zamanında mühüm irəliləyişin əldə olunduğu diqqətə çatdırılıb.

Görüşdə, həmçinin ticarətin asanlaşdırılması və sürətləndirilməsində gömrük orqanlarının rolundan, gömrük sahəsində elektron məlumat mübadiləsi, prosedurların rəqəmsal həllər hesabına avtomatlaşdırılması, hüquqpozmalara qarşı mübarizə istiqamətində vahid məlumat bazasının yaradılmasının əhəmiyyətindən bəhs edilib.

***"Xalq qəzeti"***

# Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun 27 kilometrlik hissəsi hazırdır



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də Füzuli rayonunda olub.**

Dövlətimizin başçısı 1-ci texniki dərəcəli Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun Füzuli Beynəlxalq Hava Limanına qədər olan 27 kilometrlik hissəsinin tikintisi ilə tanış olub.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası layihəsi çərçivəsində Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun layihələndirilməsi və tikintisi sürətlə davam etdirilir. Mövcud yolun uzunluğu 101, yeni yolun uzunluğu isə 81,7 kilometrdir. Yolun Tuğ dairəsinədək olan 48 kilometrlik hissəsi altı, 33,7 kilometrlik hissəsi isə dörd hərəkət zolağından ibarət olacaq.

Yolun baxış keçirilən 27 kilometrlik hissəsində əsas infrastruktur işləri tam icra olunub. Ümumilikdə Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikintisinin 50 faizi tamamlanıb. Yolboyu müxtəlif diametrli 137 suötürücü boru, 30 yeraltı keçid, 8 körpü, 7 tunel və 9 viaduk inşa edilir. Körpülərin ümumi uzunluğu 984, viadukların uzunluğu isə 2090 metrdir.

Məlumat verildi ki, layihə üzrə tikintisi nəzərdə tutulmuş doqquz viadukun səkkizində hazırda inşaat işləri davam etdirilir. Viadukların üçünün tikintisi zamanı Azərbaycanda ilk dəfə olaraq aşırım qəliblərin üfüqi sürüşdürülməsi üsulu ilə betonlama işləri yerinə yetirilir. Bundan başqa, Zəfər yolunun Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yoluna birləşən hissəsində yol qovşağının tikintisi işləri də uğurla icra olunur.

***AZƏRTAC***

# Dövlət başçısı Xocalı rayonunun Çanaqçı və Sığnaq kəndlərində



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də Xocalı rayonunun işğaldan azad edilmiş Çanaqçı və Sığnaq kəndlərində olub.**

***AZƏRTAC***

# Zakir Həsənov "Xəzri dalğası" təlimində

**Xəzər dənizinin Azərbaycana məxsus ərazi sektorunda təlimin gedişatını izləyən Müdafiə naziri, general-polkovnik Zakir Həsənov hərbi qulluqçuların peşəkarlığını yüksək qiymətləndirib.**



Bu barədə Müdafiə Nazirliyindən verilən məlumatda deyilir.

Qeyd edək ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2023-cü tədris ilinin hazırlıq planına əsasən, Hərbi Dəniz Qüvvələri (HDQ), Quru Qoşunları (QQ), Hərbi Hava Qüvvələri (HHQ) və Dövlət Sərhəd Xidmətinin (DSX) Sahil Mühafizəsi ilə qarşılıqlı əlaqədə "Xəzri dalğası" taktiki təlimi keçirilir.

İyulun 20-də Müdafiə Nazirliyinin rəhbər heyəti Xəzərin enerji infrastrukturlarının mühafizəsi və müdafiəsi zamanı döyüş əməliyyatlarının aparılması üzrə keçirilən təlimi izləmək üçün hərbi-dəniz bazasına gəlib.

Təlimə 1500 nəfər şəxsi heyət, HDQ-nin döyüş, təminat, DSX Sahil Mühafizəsinin gözətçi gəmiləri, HHQ-nin helikopterləri, pilotsuz uçuş aparatları və QQ-nin zirehli döyüş maşınları cəlb olunub.

***"Xalq qəzeti"***

# XRİTDX ilin birinci yarısına yekun vurdu

**Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətində ilin ilk altı ayının yekunlarına həsr olunmuş müşavirə keçirilib.**

Xidmət rəisi general-leytenant İlqar Musayev qurum tərəfindən dövlət orqanlarının xüsusi dövlət rabitəsi, hökumət rabitəsi, xüsusi təyinatlı informasiya-telekommunikasiya sistemləri və şəbəkələri ilə təmin edilməsi, onların internet şəbəkəsi ilə əlaqəsi və internet informasiya resurslarının məlumat və resurs mərkəzində yerləşdirilməsi, istismarı, təhlükəsizliyi və inkişafı, o cümlədən digər sahələrdə görülən işlər, mövcud nöqsanlar və qarşıda duran vəzifələr haqqında ətraflı məlumat verib.

***"Xalq qəzeti"***

# Laçın sərhəd nəzarət-buraxılış məntəqəsindən 1 927 nəfər keçib

**Azərbaycanın Laçın yolunda sərhəd nəzarət-buraxılış məntəqəsi yaratması bu qanunsuz əməllərə son qoymaq üçün zəruri tədbir idi.**

APA xəbər verir ki, bu barədə Azərbaycanın ATƏT yanındakı daimi nümayəndəsi, səfir Rövşən Sadıqbəyli Daimi Şurasının iclasında Ermənistan XİN rəhbərinə cavabında deyib.

"Eyni zamanda, Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərinin hər iki istiqamətdə şəffaf və nizamlı keçidi üçün müvafiq şərait yaradılıb.

Sərhəd nəzarət-buraxılış məntəqəsinin yaradıldığı tarixdən - aprelin 23-dən indiyədək Ermənistan tərəfinin onları bu keçiddən istifadədən çəkindirmək üçün apardığı cəhdlərə və yalan təbliğata baxmayaraq, 1 927 nəfər buraxılış məntəqəsindən istifadə edərək sərhədi keçib", - səfir qeyd edib.

# Ərdoğanın fikirləri və Rusiyanın Cənubi Qafqaz iddiası

## Görəsən, Zaxarova kimə “cəbhə” açdığının fərqindədirmi?

(əvvəli 1-ci səhifədə)

Əvvəla, Türkiyə lideri fikirlərini dilə gətirərkən, görünür, sırf o prinsipdən çıxış edib ki, hansısa ölkənin daxilində başqa dövlətin hərbi birləşmələri olmamalıdır. Bu baxımdan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatda əksini tapanlar müəyyən mənada istisna təşkil etməkdədir. O anlamda ki, Azərbaycanla Ermənistan arasında müharibə gedirdi və Rusiyanın vasitəçiliyi ilə həmin müharibə dayandırıldı. Hesab edək ki, bölgədəki erməni əhali ilə azərbaycanlılar arasında təmasın yaranması və sair məsələlərin həlli üçün Rusiya sülhməramlılarına, doğrudan, da ehtiyac duyulurdu.

Onlar üçün müddət müəyyənləşdirildi – beş il. Hətta, o da bildirildi ki, müddətin uzadılmamasına tərəflərdən birinin etirazı bəs edir. Əlbəttə, Qarabağ Azərbaycanındırsa, prinsip etibarilə Ermənistan üçün ölkəmizin ərazisində başqa dövlətin hərbçilərinin olub-olmamasının elə bir əhəmiyyəti yoxdur. Azərbaycan isə istəməz ki, öz torpağında başqa dövlətin hərbçiləri daimi şəkildə qalsınlar. Deməli, etiraz etməli olan tərəf elə Azərbaycandır. Ərdoğan isə açıqlaması ilə bildirir və həmçinin əminlik yaradır ki, Bakı məsələni yoluna qoyacaq. Türkiyə liderindən gətirdiyimiz iqtibas da bunun göstəricisidir. Yəni, ortada tam normal məntiq var. Biz öz ərazimizdə kənar ölkənin hərbçilərinin qalmasını qəbul etmədiyimiz kimi, qardaş ölkənin rəhbəri də belə bir halın mövcudluğunu istəmir.

***

Bəs, Rusiya XİN-in rəsmisi M.Zaxarova nə istəyir? Əslində, burada söhbət nəyisə istəyib-istəməməkdən getmir. Məsələ xanım Zaxarovanın cığallığındadır. Başqa sözlə desək, siyasi cığallığındadır. Rusiya XİN-in sözçüsü elə danışır ki, sanki Türkiyə tərəfdən Rusiya hərbçilərinin Azərbaycan ərazisində qalma məsələsi ilə bağlı heç bir fikir səslənməməlidir. Zaxarovanın, məntiqi bunu Ankaranın adının üçtərəfli bəyanatda olmaması ilə əlaqələndirir: “Xatırlatmaq istəyirəm ki, Ankara Rusiya, Ermənistan və Azərbaycan liderlərinin 9 noyabr 2020-ci il tarixli Bəyanatının tərəfi deyil”.

Bu yerdə onu da xatırlatmaq lazımdır ki, həmin üçtərəfli bəyanatın 5-ci bəndində münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəzin yaradılması da nəzərdə tutulub. Həmin mərkəz artıq işləyir və orada Rusiya ilə yanaşı, Türkiyə hərbçiləri də təmsil olunurlar. Bu isə o deməkdir ki, Ankara faktiki olaraq, məlum bəyanatın bir tərəfidir.

İkincisi, sual yaranır: Nəyə görə Rusiya sülhməramlılarının Qarabağdan çıxarılması məsələsi gündəmə gəlir? Ona görə ki, onlar öz üzərlərinə düşəni yerinə yetirmirlər, məsuliyyətlərini anlamırlar. Bu məsuliyyət heç də əvvəllərdə olduğu kimi, Qarabağdakı erməni uşaqlarına oyuncaq, bez, dərs vəsaitləri və sair daşıyıb şirinlik etmək deyildi. Habelə, məsuliyyət o demək deyildi ki, Rusiya sülhməramlı kontingenti erməni əhaliyə sabun, şampun, tualet salfetkası və bu kimi başqa şeylər çatdırmalıdır. Rus hərbçilərinin Qarabağdakı erməni silahlılalarına, seraratçı rejimin qeyri-qanuni dəstələrinə hərbi sursat, partlayıcı vasitələrin daşınmasına göz yummasının isə məsuliyyət hissi ilə ümumiyyətlə əlaqəsi yox idi. Onlar sadəcə nəzarət etməli idilər ki, bölgədə yenidən gərginlik yaranmasın. Ancaq yarandı və yaranır da...




Bəli, hazırkı məqamda Rusiya sülhməramlıları bölgədə gərginliyin yaranma faktoru kimi çıxış etməkdədirlər. Zaxarova başda olmaqla, ölkənin rəsmilərinin dedikləri isə budur ki, sanki həmin sülhməramlılar özlərinin qanuni ərazilərindədirlər. Hansı haqla? Təkcə ona görə ki, üçtərəfli bəyanat var? Axı, Ermənistan bu bəyanatı kağız parçasına çevirməkdədir. Azərbaycan ərazisində işğalçı ölkəyə məxsus hərbi birləşmələr qalmaqdadır. Nəzərə alaq ki, üçtərəfli razılaşmada ikincilərin regiondan çıxarılmasının Rusiya hərbi kontingentinin yerləşməsi ilə paralel şəkildə getməli olduğu əksini tapıb. Buna əməl edilmədiyindən, sənədin hüquqi aspekti də yox kimidir...

Bəli, Zaxarovanın, necə deyərlər, özünə əl qatmasına ehtiyac duyulmur. Yəni, vurğuladığlmız anlamda da onun cənab Ərdoğana cavab verən qismində Türkiyənin adının sənəddə olmadığını xatırlatmasına heç bir zərurət yoxdur. Yenə də bildirək ki, Türkiyə lideri fikrini prosedur əsasda səsləndirib. Ona cavab şəklində Ankaranın sülh prosesində yer almadığının bildirilməsi yolverilməzdir. Ən əsası isə Azərbaycan Prezidentinin bununla bağlı fikirləri var.

Qeyd edək ki, Prezident İlham Əliyev 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanat imzalandıqdan dərhal sonra xalqa müraciət etmiş və həmin müraciətində bu fikri də bildirmişdi: “Mən bir məsələni də qeyd etmək istəyirəm. Mən əziz xalqımı sənədin mətni ilə tanış etdim. Burada yeni nəzarət mexanizmi tətbiq edilir. Bəyanatın beşinci bəndində yazılıb: "Münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədi ilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradılır”.

Əlbəttə, xatırlatmalarımızla Zaxarova və üçtərəfli bəyanatı ehkamlaşdıran digərlərinin qanını qaraltmaq niyyətindən uzağıq. Amma belələri gərək sənədin yalnız özlərinə sərf edən yerlərini qabardıb digər məqamları kənara qoymasınlar, manipulyasiya yolu tutmasınlar. Başlarını soxduqları samanlıqdan çıxarıb ətrafı görsünlər. Hərçənd, bunun baş verəcəyinə inamımız yoxdur...

Aydın görünür ki, onların bir məqsədi var – regionda Rusiyanın hərbi mövcudluğunun saxlanılması. Yada salaq ki, həmin Zaxarova 10 noyabr 2020-ci il tarixdə özünün sosial şəbəkə hesabında Qarabağa daxil olan Rusiya hərbçilərinin fotolarını paylaşmış və bunu az qala bölgənin ilhaqı kimi göstərmiş, qürrələnmişdi. O, Rusiyanın müharibəni qan tökülməsini sona çatdırması məntiqini əsas götürüb fəxarət hissi keçirməmişdi. Təxminən bunu demişdi: Rusiya hərbçilərinin qərar tutduğu yerlərin sayı artdı.

İndi Zaxarova ölkəsinin hərbi baxımdan mövcud olduğu ərazilərin sayının azalması ehtimalına qarşı, bir növ cəbhə açmaq ampluasındadır. Ona görə də vurğunu Qarabağdakı Rusiya sülhməramlılarının bölgədə qalma müddətinin uzadılmasının mümkünlüyü üzərinə qoyur. Türkiyə Prezidenti Ərdoğanın fikirlərinə münasibət kontekstində bunun dilə gətirilməsinin isə heç yeri yox idi. Məsələn, hesab etsək ki, Zaxarova mövcud istiqamətdə mütləq fikir bildirməlidir, o zaman, o, birbaşa üçtərəfli bəyanatdakı müddət məsələsinə və müddətin hansı halda uzadılmasının mümkünlüyünə fokuslanmalı idi, nəinki Ankaranın adının sənəddə yer almamasına.

Nəhayət, rus sülhməramlılarının regionda mühüm sabitləşdirici rol oynadıqlarını, onların əsas funksiyasının atəşkəsi qorumaq olduğunu diqqətə çatdıran M.Zaxarova, bölgədə gərgin vəziyyətin davam etdiyini nəzərə alaraq, həmin sülhməramlıların fəaliyyətinə daha çox tələbatın yarandığını dilə gətirir və əlavə edir ki, Cənubi Qafqazda sülhün qorunması İrəvan və Bakının, o cümlədən, Ankaranın da daxil olduğu regional oyunçuların maraqlarından irəli gəlir.

Burada bir neçə məqama diqqət yetirmək zərurəti yaranır. İlk məqamı artıq qeyd etdik. Vurğuladıq ki, sülhməramlılar heç də sülhü və sabitliyi təmin etmir, əksinə qızışdırıcı rol oynayır və bu baxımdan onların köməyinə ehtiyac yoxdur. Bu isə əslində, nə İrəvanın, nə Bakının, nə də Ankaranın maraqlarına uyğundur. Sadəcə, Ermənistan məsələni anlamır, yaxud anlamaq istəmir, özünün avantürist mövqeyindən daşınmır. Bu mövqe Rusiyaya sərf edir. Elə buna görədir ki, Zaxarova və Rusiya rəsmiləri gərginlik yaradırlar. Halbuki, Moskva ədalətli davransaydı, gərginlik halı, ümumiyyətlə, müşahidə edilməzdi.

***Ə.CAHANGİROĞLU, “Xalq qəzeti”***

# Madam Luyonun erməni sevgisi qıcqırıb

## Fransız səfirini “ermənidən daha artıq erməni” olmağa sövq edən nədir?

**Fransa “bacısı” adlandırdığı Ermənistanla Azərbaycanın münasibətlərinin normallaşmasına hər vəchlə mane olan, Cənubi Qafqazda destruktiv rol oynayan dövlətdir. Rəsmi Paris vaxtilə mövcud olmuş ATƏT-in Minsk qrupunun həmsədr dövləti olsa da, əslində, hər zaman indikinə bənzər siyasət yürüdüb. Xatırlatmaq yerinə düşər ki, “Beşinci Respublika” qondarma “erməni soyqırımı”nı düz 3 dəfə (1998, 2000 və 2001-ci illərdə) tanıyıb. Müqayisə üçün deyək ki, Ermənistan özü də qondarma “soyqırımı” ilə bağlı 3 dəfə qanunvericilik aktı qəbul edib. Bunların hər üçü Ermənistanın SSRİ-nin tərkibində olduğu 1964, 1988 və 1990-cı illərdə qəbul olunub. Zənnimizcə, bu müqayisə Fransanın nə dərəcədə ermənipərəst olduğunu göstərmək baxımından əhəmiyyətlidir.**

2006-cı ildə isə “demokratiyanın beşiyi” adlandırılan bu ölkədə söz və fikir azadlığının buxovlanması istiqamətində addım atılıb: parlamentin aşağı palatası – Milli Assambleya “erməni soyqırımı”-nın inkar edilməsinin cinayət məsuliyyəti yaratdığına dair qanun qəbul edib. Hazırda qüvvədə olan bu qanun qondarma “soyqırımı”nın inkarına görə bir il müddətinə azadlıqdan məhrumetməni və 45 min avro cərimə cəzasını nəzərdə tutur.

Fransanın ermənipərəstliyi multikulturalizmin hökm sürəcəyi inklüziv, açıq və mükəmməl cəmiyyətin qurulacağı vədi ilə 2017-ci ildə prezident seçilən və 2022-ci ildə vəzifəsini qoruyub saxlayan Emmanuel Makronun dövründə daha kəskin xarakter alıb. Ölkənin hələ heç bir prezidenti bu qədər ermənipərəstlik etməmişdi. Bu məqamda Prezident İlham Əliyevin fikirlərindən iqtibas gətirmək, zənnimizcə, yerinə düşər. 2023-cü ilin yanvarın 10-da yerli televiziya kanallarına müsahibə verən Azərbaycan Prezidenti Fransanın açıq ermənipərəstliyi ilə bağlı deyib: “Ona görə mən hesab edirəm ki, mövcud vəziyyət indiki Fransa hökumətinin əməlidir. Mən ümid edirəm, Fransada gələcəkdə elə bir hökumət formalaşacaq ki, Azərbaycanla olan əlaqələri qiymətləndirəcək. Çünki biz həmişə öz siyasətimizdə ancaq dostluq niyyəti ilə onlarla əməkdaşlıq etmişik. Əvvəlki dövrdə, mən deyə bilərəm ki, 10-dan çox şəhərimiz qardaşlaşmışdır, gediş-gəliş var idi, bir çox nümayəndələr gəlmişdilər, Prezident Sarkozi, Prezident Olland Azərbaycana səfərlərə gəlmişdilər. İndi isə vəziyyət tam fərqlidir. Mən bu yaxınlarda qapalı bir görüşdə demişəm ki, Fransa bizsiz yaşaya bilər, biz də Fransasız yaşaya bilərik, heç onlar da hiss etməzlər, biz də hiss etmərik. Amma budur yol, bu, onların seçimidir və biz yenə də onlara qarşı heç nə etməmişik. Sadəcə olaraq, müharibə dövründə cavab vermişik. Mən indi müharibə dövründə olan yüksək səviyyəli təmaslar haqqında bir şey demək istəmirəm, bu, qapalı söhbətlər əsnasında olmuşdur. Amma müharibə dövründə, necə deyərlər, çox gərgin münasibətlərimiz olmuşdur. Müharibə dövründə Fransa bizi açıq-aydın ittiham edirdi, bizə şər atırdı, böhtan atırdı. İndi mən onlardan üzrxahlıq tələb edirəm. Onlar bizi şərləmişdilər, demişdilər ki, guya, biz cihadçılar gətirmişik. Bir dənə də sübut yoxdur. Üzr istəyiblərmi bizdən? Yox!”.



Beləliklə, necə deyərlər, ermənilər yalan olub, Makron gerçək. Fransa hökumətinin bir neçə ay öncə Ermənistandakı səfirliyində müdafiə sahəsində əməkdaşlığı dərinləşdirmək məqsədi daşıyan müdafiə missiyasının yaradılması isə rəsmi Parisin ermənipərəstliyinin zirvə nöqtəsidir. Məlumdur ki, 1961-ci ildə imzalanmış Diplomatik əlaqələr haqqında Vyana Konvensiyasına əsasən, bütün səfirliklərdə müxtəlif attaşelər, o cümlədən hərbi attaşelər fəaliyyət göstərir. Ancaq regiondakı gərginlik fonunda Fransanın Ermənistandakı səfirliyində müdafiə missiyasının yaradılması, təbii ki, qeyri-adi haldır. Burada ilk növbədə nəzərə almaq lazımdır ki, Fransanın da üzvü olduğu NATO 1990-cı illərdən etibarən öz üzvlərinə Ermənistan və Azərbaycana hərbi münaqişə vəziyyətində olduqları üçün silah və hərbi texnika satışına qadağa qoyub. Belə görünür ki, Paris alyansın qərarını da saymır.

***

Fransanın ermənipərəstliyi istiqamətində son hadisələrdən biri də Ermənistanı vaxtından əvvəl tərk etmək üzrə olan səfiri Ann Luyonun (onun səlahiyyət müddətinin bitməsinə bir il qalırdı-S.H.) “Armenpress”ə verdiyi müsahibədir. Səfir müsahibə zamanı Ermənistanı və erməniləri mümkün qədər tərifləyib. Əmin edib ki, 2020-ci il müharibəsinin ağır nəticələrinə baxmayaraq, özünün möhkəmliyi və gələcək üçün planlar qurmaq bacarığı ilə onu heyran qoyan bu ölkəni və xalqı heç vaxt unutmayacaq. Səfir vurğulayıb ki, 10 noyabr tarixli üçtərəfli bəyanatının pozulmasına son qoymaq, “Dağlıq Qarabağ əhalisi”nin hüquq və təhlükəsizliyini təmin etmək üçün siyasi həll yolu tapılmalıdır: “Fransa Aİ və ABŞ-la razılaşaraq, danışıqlar prosesində irəliləyişi təmin etmək üçün mümkün olan hər şeyi etməyə davam edəcək”.

Bundan sonra isə diplomat qeyd edib ki, onlar dekabr ayından etibarən Laçın yolunun “blokada”ya alınmasını, Qarabağ əhalisinə “ciddi ziyan vurulmasını” pisləyir, yolda hərəkətin bərpası ilə bağlı Beynəlxalq Ədalət Məhkəməsinin qərarının icrasına çağırırlar: “Biz Beynəlxalq Qırmızı Xaç Komitəsinin “blokada”nın yaratdığı humanitar böhranı aradan qaldırmaq səylərini alqışlayırıq. Lakin “blokada”ya, 2020-ci ilin 10 noyabr tarixli üçtərəfli bəyanatın pozulmasına son qoymaq və “Dağlıq Qarabağ xalqı”nın (?) hüquq və təhlükəsizliyini təmin etmək üçün siyasi həll yolu lazımdır”.

Səfir BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan Fransanın təşəbbüsü ilə 2022-ci ilin sentyabr və dekabr aylarında şuranın iclaslarının keçirilməsini göstərib. Bundan sonra deyib: “2022-ci ilin sentyabrında mən Azərbaycanın atəşə tutmasından zərər çəkmiş Göyçə, Dərələyəz və Zəngəzurun (təbii ki, səfir tarixi Azərbaycan torpaqlarının adlarının erməni variantını səsləndirir – S.H.) kəndlərində oldum, dinc əhalinin iztirablarının şahidi oldum, onlara həmrəy olduğumu bildirmək istəyirəm”.

Beləliklə, səfir diplomatik etiket qaydasına zidd tərzdə, birtərəfli qaydada Azərbaycanı suçlayır, ölkəmizi əsassız olaraq ittiham edir. Bu ittihamlar səfirin diplomatik statusuna uyğun gəlmir. Səfirlər, bir qayda olaraq, öz ölkələri ilə təyin olunduqları ölkələr arasında münasibətlərin inkişafı üçün çalışmalıdırlar. Fransa səfirinin müsahibəsi isə onun səlahiyyət həddindən kənara çıxdığını göstərir.

Qeyd etdiyimiz kimi, səfir vaxtından əvvəl Ermənistanı tərk edir. Onun səlahiyyət müddəti 2024-cü ilin avqustunda bitəcəkdi. Ancaq ermənipərəst səfirin diplomatik karyerası vaxtından əvvəl sonlandırıldı. Bu, ilahi ədalətin təntənəsi kimi də qiymətləndirilə bilər.

***Səxavət HƏMİD, “Xalq qəzeti”***

### Ekspert rəyi

**İlyas HÜSEYNOV, politoloq**




– Fransanın Ermənistandan ayrılmaq üzrə olan səfiri Ann Luyo fəaliyyəti dövründə İrəvanı çox ciddi şəkildə müdafiə etmişdi. Ermənistan-Fransa münasibətlərinin ən yüksək səviyyəyə çatdırılmasında və Makron iqtidarının İrəvana güclü siyasi dəstək verməsində səfir əlindən gələni edib.

Maraqlıdır ki, diplomatik praktikada səfirlər regional proseslərə bu qədər dərin şəkildə cəlb olunmurlar. Fransanın Ermənistanda maraqlarını qorumalı olan bu şəxs isə daha çox erməni maraqlarına xidmət edən addımlar atıb. Xüsusilə vurğulamaq lazımdır ki, səfir çıxışlarında, müsahibələrində, çağırışlarında hər zaman Azərbaycanı tənqid edib və reallıqdan uzaq fikirlər söyləyib. Əksər hallarda onda erməni arqumentləri əsasında mülahizələr formalaşırdı.

Fransanın Ermənistandakı səfirliyində müdafiə missiyasının yaradılması birbaşa Fransanın İrəvanı hərbi baxımdan gücləndirmək niyyətindən xəbər verir. Rəsmi Paris burada regional güc balansını dəyişmək üçün fəaliyyət göstərib. Səfir bunu böyük uğur kimi təqdim edir. Eyni zamanda, hamıya məlumdur ki, Avropa İttifaqının Ermənistanda yerləşən missiyasının arxasında da Fransa və onun satellitləri dayanır. Fransa çıxardığı siyasi qərarların özünün təsir dairəsində olan dövlətlər tərəfindən məcburi, qeyd-şərtsiz qəbul olunmasına çalışır. Biz Benilüks (Qərbi Avropada üç monarxiyanın – Belçika, Niderland və Lüksemburqun daxil olduğu siyasi, iqtisadi və gömrük birliyi olan hökumətlərarası təşkilat-S.H.) ölkələrinin Azərbaycan əleyhinə müxtəlif qondarma qərarlarının məhz Fransanın siyasi sifarişi ilə qəbul edildiyini bilirik. Eyni zamanda, Azərbaycanın regional təhlükəsizliyə təhlükə törətməsi, aqressiv siyasət yürütməsi, Qarabağ ermənilərini “blokada”ya salması kimi saxta narrativlər də məhz Fransa-Ermənistan işbirliyinin nəticəsidir.

Bundan əlavə, Paris üstün olduğu mövqelərdən ölkəmizə qarşı istifadə edir. Fransa Avropa İttifaqındakı dominant mövqeyini ölkəmizə qarşı çevirir. Paris BMT Təhlükəsizlik Şurasının ötən ilin sentyabr – dekabr aylarında xüsusi iclaslarının çağrılmasına da nail olub. Bu iclasları çağırsa da, uğursuzluqla üzləşib. Çünki BMT Təhlükəsizlik Şurasında da Azərbaycanın maraqlarını qoruyan dövlətlər olub və onlar əslində, haqq-ədaləti qoruyublar. Fransa humanitar əsaslı Frankofoniya Təşkilatında belə, ölkəmizə qarşı müxtəlif çağırışlar edilməsinin təşəbbüskarıdır. Lakin Albaniya kimi Azərbaycana dost ölkə burada da bizim mövqeyimizi müdafiə edib.

Xüsusi vurğulamaq lazımdır ki, Fransa, hazırda həm də, Cənubi Qafqazda gedən proseslərdə maraqlarını təmin etməyə çalışır. Fransa ATƏT-in Minsk qrupu siyasi dövriyyədən çıxdıqdan sonra Avropa İttifaqı vasitəsilə buna cəhd edir. Yeni təyin olunan səfirin dosyesinə baxdıqda da biz görürük ki, o, sələfinin siyasi xəttini davam etdirməklə yanaşı, həm də hərbi sahədə İrəvanın daha da güclənməsinə xidmət edəcək. Ümid edirəm ki, səfir Ann Luyonun geri çağırılmasının səbəblərini biz yaxın müddətdə biləcəyik. Düşünürəm ki, bu, sıradan hal deyil. Görünür, səfirin geri çağırılmasında müəyyən siyasi səbəblər var. Hətta, hüquq pozuntularının olması da ehtimal edilir. Bütövlükdə, səfir Ann Luyo fəaliyyəti dövründə regional əməkdaşlığı gücləndirmək əvəzinə, pozuculuqla məşğul olub. Eyni zamanda, onun Qərbi Azərbaycan bölgəsinə – Qərbi Zəngəzura, Göyçəyə, Dilicana səfərləri zamanı verdiyi bəyanatlar və çəkdiyi fotolar da ölkəmizə qarşı mənfi fon yaratmağa xidmət edirdi.

# Axsaq atın kor nalbəndi

## Fransa öz hərbi texnikası ilə Ermənistanın müdafiə qabiliyyətini “gücləndirməyə” girişib

**Özünün kasıb büdcəsi və məhdud imkanları ilə hərbi-sənaye potensialını Azərbaycana “çatdırmaq və ötüb keçmək” xəyalına düşən Hayastan rəhbərliyi səmərəsiz cəhdlərə baş vurmaqdadır. Onu bu cəhdlərə şirnikləndirən isə avropalı “böyük bacısı” Fransadır.**



Ötən həftə Parisdə Ermənistan parlamentinin spikeri Alen Simonyanı qəbul edən Fransa Senatının sədri Jerar Larşe həmin görüşdən sonra özünün “Twitter” səhifəsində bunları yazmışdı: “Mən Ermənistanı Dağlıq Qarabağla (?) birləşdirən Laçın dəhlizinin təcili surətdə açılmasını tələb etdim. Bundan başqa, Ermənistana təhlükəsizliyini təmin etməkdən ötrü müdafiə silahlarının verilməsini sürətləndirməyi tapşırdım”.

Artıq sözdən işə keçiblər. Fransanın Ermənistanı silahlandırmağa başladığına dair xəbərlər Azərbaycan mediasında xeyli vaxtdır yayılmaqdadır. Bunun dolayısı ilə deyil, birbaşa təsdiqi kimi Parisin hərbi texnikanın ilk partiyasını – 50 ədəd zirehli transportyorunu İrəvana çatdırdığı təsdiqini tapmış informasiyadır.

Fransa qanunverici orqanının rəhbərinin bu davranışı bölgədə sülhün və sabitliyin əldə olunması üçün vasitəçi aktorların göstərdiyi bütün səyləri heçə endirir. İrəvan Azərbaycanın ərazi bütövlüyünü rəsmən tanıdığını elan edəndə Paris rəsmiləri kiçik “rəfiqələrini” açıq-aşkar revanşizmə cəsarətləndirirlər. Gözləri kor, qulaqları kar olmuş müsyölərin diqqətinə bir daha çartdırırıq ki, Ermənistanla Qarabağ arasında gediş-gəlişin təmin olunduğu Laçın yolu bağlı deyil. Bu faktı BMT Beynəlxalq Ədalət Məhkəməsi bir neçə gün əvvəl qəbul etdiyi qərarı ilə də təsdiqlədi.

### Həmin silahların da faydası olmayacaq

Cənubi Qafqazda sülhün, sabitliyin bərqərar olması üçün zəruri mühitin yaradılmasına nəinki faydası, əksinə ziyanı var. Ona görə də belə məsuliyyətsiz bəyanatlar verməkdən çəkinmək lazımdır. Siyasi cəhətdən bu cür avantürist bəyanatlar İrəvan və Xankəndidəki separatçılarla yanaşı, son vaxtlar Moskvadan da eşidilməkdədir. Əslində, Senatın, ümumilikdə, Fransa hakimiyyətinin bu yanaşması sülhənailolma istiqamətində gedən prosesə, Brüssel və Vaşinqton platformalarında aparılan danışıqlara arxadan zərbə endirmək mənasına gəlir.

44 günlük müharibədən sonra Rusiyadan silah ixracına marotorium qoyan rəsmi İrəvan öz ordusunu İran, Hindistan, Fransa istehsallı hərbi məhsullarla təchiz etməyə başlayıb. Bu sırada Yunanıstanın da adını çəkə bilərik. Son vaxtlar Hayastan Afina ilə də hərbi-texniki əməkdaşlığını möhkəmləndirməyə çalışır. Konkret olaraq məlumdur ki, yunanlar ermənilərə xüsusi hərbi bölmələrin hazırlanmasında yaxından kömək göstərirlər. O da bəllidir ki, bu iki ölkəni istər siyasi, istərsə də hərbi baxımdan bir-birinə birləşdirən ortaq dəyərlər və “strateji hədəflər” mövcuddur. İrəvan Avropada silah istehsalçıları ilə sövdələşmələrini başa çatdırmamış okeanın o tayına – ABŞ-a qarmaq atmağı planlaşdırır. Müdafiə nazirinin birinci müavini, baş qərargah rəisi Edvard Asryanın ABŞ-a işğüzar səfəri məhz bu yöndən maraqlı ehtimallar əmələ gətirir. Lakin heç bir faydası olmayacaq. Ermənistan ordusu iki il səkkiz ay bundan əvvəl elə günə qoyulub ki, yaxın 20-30 ildə özünə gələ bilməsi çətin məsələdir.

### Revanşistlər status-kvonu dəyişəcəklərmi?

Bəli, ATƏT-in arxivə göndərilmiş Minsk qrupunun həmsədri kimi Fransa hər vasitə ilə Ermənistana yardım etmək istəyini gizlətmir. Elə Fransanın İrəvandakı səfirliyi yanında hərbi attaşenin təyin edilməsi onun öz silahlarını “bacısına” vermək məqsədini daşıyır. Həmin hərbi attaşesi silah sövdələşməsinin icrası ilə bağlı bütün proseslərə nəzarət etmək səlahiyyətlərinə malikdir.

Yuxarıda qeyd etdiyimiz kimi, Parisin Ermənistanı müasir texnika və sursatla silahlandırması regionda qüvvələr balansını qarşı tərəfin xeyrinə dəyişmək məqsədinə xidmət edir. İndi bu hərbi-siyasi eyforik atmosferdən sərməst olan revanşist qüvvələrin əhval-ruhiyyəsi daha yuxarı qalxmışdır. Üstəlik, onlarda hazırkı status-kvonun dəyişdirilməsinə “böyük ümidlər” yaranmağa başlayıb. Yenidən işğalçılıq meyilləri güclənməkdədir.

Göründüyü kimi, Parisin son davranışları Cənubi Qafqazda vəziyyətin gərginləşməsinə rəvac verir, arzuolunmaz qarşıdurma riskini artırır. Bu isə beynəlxalq səviyyədə bölgədə təhlükəsizliyin zədələnməsi qənaətinə aparıb çıxara bilər. Fəqət hər şeydən göründüyü kimi, Fransa üçün nə bölgənin, nə də beynəlxalq aləmin təhlükəsizliyi önəmlidir.

Parisin Azərbaycana qarşı ərazi iddialarından əl çəkməyən Hayastana hərbi və siyasi dəstək verməsi, onu silahlandırması, ölkəmizə aşkar mənfi münasibət bəsləməsi Bakını qabaqlayıcı addımlar atmağa sövq edəcək. Amma Senatın sədri başqa olmaqla, Fransa hakimiyyəti unutmamalıdır ki, Azərbaycanla yeni toqquşma Ermənistana yeni və daha böyük fəlakətdən savayı heç nə vəd eləmir. Bu vəziyyətdə hakim “Vətəndaş müqaviləsi” partiyasından deputat, parlamentin müdafiə məsələləri komissiyası sədrinin müavini Armen Xaçatryan deyib ki, Ermənistan silah almaq üçün bütün ölkələrlə fəal iş aparır: “Fransa ilə prosesin hansı mərhələdə olduğu, hara yetişdiyimiz, hansı hərbi-texniki əməkdaşlıqdan söhbət getdiyi barədə fransızların dediyindən başqa heç nə deyə bilmərəm. Düşünürəm ki, bu, kifayətdir”.

Xaçaturyan onu da vurğulayıb ki, Rusiya silah məsələsində Ermənistanın əsas müttəfiqi olaraq qalır: “Rusiya Federasiyası məlum səbəblərə görə, uzun müddətdir Ermənistanın silaha olan ehtiyaclarını təmin edə bilmir. Təbiidir ki, biz də ordumuzu silahlandırmaq üçün bütün dünya boyunca partnyorlar axtarmağa məcburuq”. Burada qeyd edək ki, ötən ay Ermənistanın müdafiə naziri Suren Papikyan Fransaya səfəri zamanı aviasiya sərgisinin açılışında iştirak edib və Fransa müdafiə sənayesi şirkətlərinin rəhbərləri ilə görüşüb.

### Boş vurnuxmalar...

Erməni politoloq Areq Koçinyan hesab edir ki, Fransa artıq Ermənistan–Azərbaycan münasibətlərinin normallaşdırılmasında vasitəçi kimi qəbul



oluna bilməz: “Biz birmənalı şəkildə bu istiqamətdə işləməliyik ki, Fransa vasitəçi rolundan çıxıb bizim müttəfiqimizə, imkanlarımızı, müqavimətimizi gücləndirən müttəfiqə çevrilsin. Misal üçün, Azərbaycan üçün Pakistan və ya Türkiyə necədirsə, Fransa da bizim üçün elə bir dövlət olsun. Paris vasitəçi kimi indiyədək Ermənistan üçün edə biləcəyini maksimum edib. Amma indi Fransanı vasitəçi kimi görmək Ermənistanın marağında deyil. Ermənistanın marağında olan Fransanı müttəfiq kimi görməkdir”.

Koçinyan əlavə edib ki, burada bir problem var: “Qərbdə Ermənistanla hərbi-sənaye əməkdaşlığına birmənalı yanaşmırlar və buna səbəb Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) üzvü olmasıdır. Başlıca problem isə Ermənistanın Moskvadan asılılıq dərəcəsidir. Digər önəmli problem Ermənistanda idarəçiliyin mərkəzində qərar tutmuş şəxslərin Rusiya Federasiyası ilə sıx bağlılığıdır. Əgər bu iki məqam olmasaydı, Ermənistanın KTMT üzvlüyü prinsipial problem olmazdı”.

Politoloq bildirib ki, hazırda Ermənistanın silah əldə etməsi üçün başqa bazarlar yoxdur. Bu fonda da belə demək olarsa, Fransa özünü ortaya atıb. Ümumiyyətlə, 44 günlük Vətən müharibəsindən sonra Fransa aşkar şəkildə Ermənistanın tərəfini tutmaqda davam edir. ATƏT-in Minsk qrupunun həmsədri kimi bəzən yalançı neytrallıq göstərirdisə, indi bundan əsər-əlamət də yoxdur. Amma Fransa da daxil olmaqla, Qərb nəzərə almalıdır ki, bu regionda sülh prosesi gedir. Ermənistanı silahlandırmaqla Fransa bu prosesə ciddi əngəl yaradır. Haylar da nəzərə almalıdır ki, Fransadan nə qədər müasir silah alsalar belə, Azərbaycan Ordusunun qarşısında tab gətirmək iqtidarında olmayacaqlar.

Atalarımızın gözəl bir zərb-məsəli var: axsaq atın kor nalbəndi olar. İndi avropalı müsyölər belə güman edirlər ki, hayları ən müasir silahlarla təchiz etməklə bölgədə hərbi balansı, qüvvələr nisbətini dəyişə biləcəklər. Amma onların unutduqları acı həqiqət ondan ibarətdir ki, savaşda əsas şərt texnika deyil, insan amilidir. Peşəkar, cəsarətli, haqq işi uğrunda ölümə gedən əsgər! Həmin əsgər isə nifrət təbliğatı ilə deyil, Vətənə məhəbbətlə tərbiyələnəndə döyüşçüyə çevrilir.

*İmran BƏDİRXANLI,*
*“Xalq qəzeti”*

---

**Əvvəla, onu xatırladaq ki, Nikol Paşinyan bu məqamda iki yalanın müəllifidir. Birinci yalanı 44 günlük İkinci Qarabağ müharibəsindən sonra demişdi. Həmin günlərdə həlak olmuş erməni əsgərlərinin sayını az göstərmək üçün demişdi ki, döyüşdən qayıtmayan iki-üç min əsgər itgin düşüb. İndi həmin “itgin düşənlər” məsələsi bugünkü Ermənistanın çoxsaylı problemlərinin üstünə daha birini əlavə edir.**

İkinci yalanı isə (əslində, bu, Paşinyanın bəlkə də neçə mininci yalanıdır) ötən həftə dilə gətirmişdi. Demişdi ki, bir həftədən sonra itkin düşmüş əsgərlərin analarını qəbul edəcək. Dedi, amma etmədi. Əvvəla ona görə qəbul etmədi ki, həmin anaların sayı minlərcədir. Üstəlik, yalançılıq, riyakarlıq, köhnə rəhbərlər Robert Koçaryan və Serj Sarkisyan tərəfindən zəifləditmiş Ermənistan dövlətini onların əlindən qəhrəmancasına alaraq, uçurumun bir addımlığına gətirdi. İndi Azərbaycanın işləri çox asandır”.

Matevosyan əmindir ki, Berlin divarlarının sökülməsi SSRİ-nin çökmə-

# Erməni siyasətində “bir həftə” yalanı

## Müəllifləri isə Nikol Paşinyan və Arayik Arutyunyandır





sözdən qaçmaq müasir Ermənistanın iqtidarının fəaliyyətinin tərkib hissəsidir. Elə keçmişdə də belə olublar.

Ermənistan mətbuatı yazır ki, itkin düşmüş əsgərlərin valideynləri baş nazirin onların müraciətinə biganəliyindən sonra İrəvanın əsas küçələrindən olan Baqramyan prospektini bağlamışdılar. İndi isə xəbərdarlıq edirlər ki, əgər o, bizi qəbul etməyə “vaxt tapmasa” biz daha çox adam toplayacaq və daha böyük yolları bağlayacağıq. Əsgər anaları soruşurlar ki, o, şəkil çəkdirmək üçün avtobusda gəzməyə və ya maldarlarla görüşməyə vaxt tapırsa, bizi qəbul etməyə niyə vaxt tapmasın?

Başqa bir həftə söhbəti isə baş separatçı Arayik Arutyunyanı öz tərəfdarları qarşısında başıaşağı edir. Türk həmkarlarımız yazırlar ki, Arayikin Azərbaycana “bir həftə vaxt verməsi” tülkünün aslana “yolumdan çıx!” – deməsinə bənzəyir. Yəni Azərbaycanın Qarabağ deyilən ərazisindəki erməniləri dəstəkləməkdən indi İrəvan qarışıq, hamı imtina edir. Arayikin vədlərinə münasibət bildirən ermənilər isə yazırlar ki, biz sadəcə simulyasiyalara aldanaraq vaxt itiririk. “Vaxt itirməkdən” danışan erməninin də məqsədi aydın deyil. Onlar vaxt itirməyib, neyləyəcəklər ki?

Bu sualın cavabını Ermənistan mətbuatı dəfələrlə verib: “Biz indi vaxt itirmirik, vaxtı geridə qalan otuz ildə itirmişik”, “Biz Nikol Paşinyanın hakimiyyətə gəlməsini dəstəkləyəndə geridə qalan illərdə itirdiklərimizi qaytaracağımıza ümid edirdik. Ancaq əksinə, gələcəyi də itirdik”. Hətta, Ermənistanın “Siyasi iqtisad” Tədqiqat İnstitutunun siyasi icmalçısı Beniamin Matevosyan bu barədə danışarkən Nikol Paşinyanı ələ salmağı daha məqsədəuyğun sayır: “Bizim indiki baş nazirimiz Nikol sinə gətirib çıxardığı kimi, Qarabağın Bakının tabeçiliyinə keçməsi də Ermənistan dövlətçiliyinin çökməsinə səbəb olacaq: “Nikol Paşinyan milli dövlətçiliyimizin bu çökməsini sürətləndirir”.

Beniaminə xatırlatmaq istəyirik ki, Qarabağ ərazisini Berlin divarlarına bənzətməkdə tamamilə haqlıdır. Çünki Berlin divarının hər iki tərəfi Almaniya olduğu kimi, Qarabağ və Şərqi Zəngəzur da Naxçıvan, Şəki, Quba və Lənkəran kimi Azərbaycan torpağıdır. Bunu bütün dünya bilir. Ermənistan dövlətini SSRİ kimi nəhəng dövlətlə müqayisə etməyi isə məhz ermənilik xəstəliyinə tutulanlar bacarardılar. Sizə Azərbaycan torpaqlarının bir küncündə dövlət yaratmaq imkanı verənlər başda olmaqla, hamı bilir ki, Ermənistan SSRİ-dən “bir az” kiçik olduğuna görə, onun dağılmasına daha bir “dəmir yumruq” kifayətdir.

Sonda onu da xatırladaq ki, Azərbaycan Mətbuat Şurasının erməni jurnalistlərin Bakıya gəlməsinə heç bir problemin olmadığı ilə bağlı yaydığı məlumat da İrəvanda maraqla qarşılanıb, Azərbaycan Xarici İşlər Nazirliyinin Bakının icazəsi olmadan Qarabağa səfər etmiş 58 əcnəbi jurnalisti “qara siyahı”dan çıxarması da. Arminfo.am xəbər portalı Rəşad Məcidin bəyanatından bir cümləni məhz olduğu kimi təqdim edir: “Bildiyimə görə, bir neçə Ermənistan jurnalisti ilə Tbilisidə görüş təşkil olunub. Hər hansı Ermənistan jurnalistinin arzusu olarsa, Azərbaycana gəlmələrində problem olmaz”.

Vəssalam! Açıq şəkildə etiraf edirlər ki, ölkə rəhbərliyi, eləcə də, separatçılar terror və təxribatlardan əl çəkməsələr də, erməni xalqı Azərbaycana inteqrasiyada maraqlıdır.

*İttifaq MİRZƏBƏYLİ,*
*“Xalq qəzeti”*

---

# XİN: Paşinyanın son çıxışı Ermənistanın sülh müqaviləsi danışıqlarına maneçilik törətmək niyyətini göstərir

**Ermənistanın baş naziri Nikol Paşinyanın iyulun 20-də hökumətin iclası zamanı çıxışında, Brüsseldə liderlər səviyyəsində keçirilmiş görüşə istinadən Laçın yolu ilə bağlı son 8 ay ərzində təkrarladıqları iddianı bir daha xüsusi vurğulaması Ermənistan tərəfinin bu məsələdən siyasi məqsədləri üçün istifadə etməklə yanaşı, son zamanlar irəliləməkdə olan sülh müqaviləsi danışıqlarına maneçilik törətmək niyyətini nümayiş etdirir.**

Bu fikirlər Xarici İşlər Nazirliyinin məsələ ilə bağlı bəyanatında yer alıb.

Bildirilib ki, Vətən müharibəsindən sonra Laçın yolunda Ermənistan tərəfindən aparılan qeyri-qanuni fəaliyyət sübut olunaraq, bu fəaliyyətin dayandırılmasına Azərbaycan tərəfindən çağırışlar edildiyi hər kəsə məlumdur. Bu fəaliyyətə məhəl qoyulmaması



nəticəsində Azərbaycan tərəfi beynəlxalq hüququn norma və prinsipləri, eləcə də Azərbaycan qanunvericiliyi çərçivəsində Laçın sərhəd-buraxılış məntəqəsini yaradaraq son bir neçə ay ərzində həm yüklərin, həm də erməni sakinlərin şəffaf və tənzimlənən qaydada keçidini təmin edib. Bu xüsusda, məntəqənin mövcudluğunun yolun bağlanması kimi təqdim edilməsi tamamilə yanlış yanaşmadır. Hətta Beynəlxalq Ədalət Məhkəməsi 6 iyul tarixli qərarı ilə Ermənistan tərəfinin məntəqənin aradan qaldırılması ilə bağlı müraciətini yekdilliklə rədd edərək, bu iddianın əsassız olduğunu təsdiqlədiyi məlumdur. Ermənistan tərəfinin 15 iyun tarixində məntəqəni atəşə tutması, Azərbaycan sərhədçisini yaralaması, qaçaqmalçılıq cəhdləri etməsi Ermənistanın son 30 ildə Azərbaycan ərazilərinə qarşı təcavüzü və qeyri-qanuni fəaliyyəti davam etdirmək niyyətini göstərib, bununla Laçın məntəqəsinin labüdlüyü bir daha təsdiqlənib.

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin Azərbaycan tərəfindən təklif olunan “Ağdam-Xankəndi” yolunun yüklərin daşınması üçün vacib olduğu fikrinə məhəl qoymayan Ermənistan tərəfinin hər vəchlə bu yoldan imtina etməsi bölgədə “gərgin humanitar vəziyyət” iddiasının əsassız olduğunu və Ermənistan Azərbaycan ərazisində qeyri-qanuni fəaliyyəti davam etdirmək niyyətini sübuta yetirir.

Azərbaycanın bölgədə “etnik təmizləmə” həyata keçirmək istiqamətində addımlar atdığı barədə Ermənistan tərəfinin iddiası olduqca yanlış və təhlükəlidir. Azərbaycanlılara qarşı kütləvi qırğınlar və deportasiyalar həyata keçirən Ermənistandan fərqli olaraq, Azərbaycan heç zaman erməni sakinlərə qarşı etnik təmizləmə siyasəti həyata keçirməyib. Qarabağı Azərbaycan ərazisi kimi tanıyan Ermənistanın baş naziri erməni sakinlərin Azərbaycana reinteqrasiyasını təşviq etmək əvəzinə, dialoqun hansı formada həyata keçirilməsinə dair şərtlər irəli sürməsi, Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı addım kimi qiymətləndirilir və qəbuledilməzdir.

Həmçinin vurğulanıb ki, Azərbaycan və Ermənistanın sərhədləri hansı çərçivədə delimitasiya etməsindən asılı olmayaraq, Ermənistanın erməni silahlı qüvvələri tam olaraq Azərbaycan ərazisindən çıxarılmaq öhdəliyini yerinə yetirməməsi, əraziyə maliyyə dəstəyini davam etdirməsi və ərazi iddialarını müxtəlif məktublarda, bəyanatlarda və çıxışlarda vurğulaması şəraitində prosesin uğursuzluğa düçar olmasına çalışdığı hər kəsə aydındır və bu istiqamətdə manipulyasiyalar əsassızdır.

Azərbaycan tərəfi yuxarıda qeyd edilən istiqamətlər üzrə Ermənistan ilə sülh prosesinin təşəbbüskarı kimi bölgədə sülhün, sabitliyin və təhlükəsizliyin bərqərar olmasında maraqlıdır, eyni zamanda, danışıqlar prosesində fəal tərəfdir. Ermənistan tərəfi sülhdə maraqlıdırsa, sülh prosesinə maneçilik törədən səylərdən əl çəkməlidir.

*Qəzənfər QASIMOV,*
*“Xalq qəzeti”*

# Heydər Əliyev dərsləri



(əvvəli ötən saylarımızda)

### "Yoxsa, burada mənfi hallar olmur?"

Ümummilli lider Heydər Əliyev Parisdə Fransanın "Mond diplomatic" qəzetinə verdiyi müsahibədə müxbirin Azərbaycanda keçirilmiş seçkilərə birtərəfli yanaşmasının yolverilməz olduğunu bildirmişdi. Müsahibənin bir hissəsini təqdim edirik.

**H.Əliyev:** Mənə dedilər ki, siz bu yaxınlarda Bakıda olubsunuz.

**M.Jeqo:** Bəli, olmuşam. Seçkilər zamanı, Konstitusiya qəbul edilən zaman olmuşam. Mən belə düşünürəm ki, bu, demokratikləşdirməyə, vəziyyəti sabitləşdirməyə doğru yolda sizin üçün böyük addımdır. Amma seçkilər zamanı biz bəzi mənfi halları da gördük.

**H.Əliyev:** Yoxsa, burada mənfi hallar olmur?

**M.Jeqo:** Əlbəttə, burada da olur.

**H.Əliyev:** Mənə dedilər ki, siz bizim seçkiləri o qədər də obyektiv işıqlandırmadınız. Mənə belə çatdırdılar.

**M.Jeqo:** Bəli, mən bu barədə kifayət qədər mənfi ruhda yazdım.

**H.Əliyev:** Bəs hesab etdinizmi ki, siz obyektiv yazdınız? Sizə elə gəlmirmi ki, hansısa təsir altına düşmüşdünüz?

**M.Jeqo:** Xeyr.

**H.Əliyev:** Yoxsa, siz bizə qərəzkarlıqla yanaşırsınız?

**M.Jeqo:** Xeyr.

**H.Əliyev:** Mən isə belə düşünürəm ki, əgər siz seçkiləri tamamilə mənfi ruhda işıqlandırmırsınızsa, bu, qeyri-obyektivlikdir. Siz ya Azərbaycana, sadəcə olaraq, qərəzkarlıqla yanaşırsınız, ya da sadəcə olaraq, hansısa mənfi təsir altına düşmüşsünüz. Çünki seçkilər kimi böyük bir iş nöqsansız ola bilməz. Bu, təbiidir. Odur ki, jurnalist müsbət halları da, mənfi halları da görməlidir, nəyin çox olduğunu, nəyin isə az olduğunu götür-qoy etməlidir. Əgər adam diqqəti ancaq mənfi cəhətlər üzərində cəmləşdirirsə və müsbət halları görmək istəmirsə, onda, təbii olaraq, onun haqqında qeyri-obyektiv müəllif kimi bir təsəvvür yaranır.

### "Bir kiloqram "Mişka" konfeti aldım"

Çıxışlarının birində Heydər Əliyev Zərifə xanımla evlənməsinin tarixçəsini həzin bir xatirə ilə dilə gətirmişdi.

– Mən bu gün bu toy mərasimində iştirak etdim. Sizə demək istəyirəm ki, belə bir mərasimi birinci dəfədir görürəm. Mən belə mərasimi heç vaxt görməmişəm. Bilmirdim ki, o, necə olur. Çünki mən evlənəndə – bu, çoxdan olubdur – belə şeylər yox idi. Mən bunları sizə danışa bilərəm. Mərhum həyat yoldaşım Zərifə xanımla biz iki-üç il idi ki, evlənmək istəyirdik. Amma o vaxt şəraitimiz yox idi. Sizə deyim ki, mən evlənmək istəyirdim, Zərifə xanımla biz müəyyən vaxt tanış idik. Ancaq mənim evim yox idi. Ona görə də biz iki il gözləməli olduq ki, mən ev alım. Mən sonra ikiotaqlı ev aldım. Demək, evlənmək mümkün idi. O vaxt bir siyasi məsələ də var idi, onu bu gün burada deməyin yeri yoxdur. O zaman – 1950-ci ilin əvvəllərində totalitar rejimin ən qatı vaxtı idi. Bir sıra dairələr bəzi siyasi səbəblərə görə bizim evlənməyimizə razılıq vermirdi. Ona görə də biz müəyyən vaxt gözlədik. 1953-cü ildə Stalin öldü, ondan sonra ölkədə siyasi vəziyyət dəyişdi və 1954-cü ildə mən evləndim. Ancaq nə təhər evləndim? Biz Bakıda şəhəri gəzirdik. O vaxt Voroşilov küçəsi var idi, indi həmin küçə Yusif Məmmədəliyevin adını daşıyır. Gəlib gördük ki, orada bir ZAQS şöbəsi var. Biz həmin ZAQS-a getdik. Nə şahid, nə də başqa iştirakçı var idi. Heç kəs yox idi. ZAQS-da bir qadın oturmuşdu, ona dedik ki, biz kəbin kəsdirmək istəyirik. Bildirdi ki, yaxşı, gəlin oturun. Heç üzük də yox idi. Biz oturduq. Buradakı kimi belə təntənəli nitqlər olmadı. Həmin qadın bizdən soruşdu ki, ailə qurmağa razısınız? Dedik ki, bəli. Bildirdi ki, buraya imza atın, biz də imza atdıq. Bizim kəbin kağızımızı verdilər. Soruşdum ki, nə edək? O vaxt "Nizami" kinoteatrının yanında bir mağaza var idi, orada yaxşı konfet satırdılar. Yadınızdadır ki, o zaman "Mişka" konfeti var idi, amma baha idi. Biz həmin mağazaya getdik, bir kiloqram "Mişka" konfeti aldım. Sonra oradan piyada dəniz kənarına gəldik. Zərifə xanımın ailəsi orada yaşayırdı. Biz onların evinə gəldik, Zərifə xanımın anasına və qohumlarına dedik ki, artıq kəbin kəsdirmişik. Bildirdim ki, bir kiloqram "Mişka" konfeti gətirmişəm ki, ağzımızı şirin edək. Bax, o vaxt bizim evlənməyimiz belə olubdur.

### "Bu vərdiş məndə çoxdan yaranmışdır"

Ulu öndər nadir siyasi xadim idi ki, bəzən saatlarla çıxış etsə də, heç vaxt hazır yazılı mətndən istifadə etməzdi. Bəs o, buna necə nail olurdu? Özünü dinləyək:

– Mən heç bir çıxışı, heç bir məruzəni heç vaxt əvvəlcədən yazmıram. Nə yadımdadırsa, o da yadımdadır. Hər hansı əlavə materiallar, rəqəmlər göstərmək lazımdırsa, sadəcə olaraq, məlumat tələb edirəm və onu mənə verirlər. Məsələn, mən bu çıxışımda yadımda qalan çox rəqəmlər gətirdim. Mən onları bilirdim, lakin bu barədə daha dəqiq danışmaq üçün bir gün əvvəl məlumat istədim və onu mənə verdilər, mən bu rəqəmləri yaddaşımda bərpa etdim. Allaha şükür, yaddaşım yaxşıdır, buna görə də çox şeyi yadda saxlayıram. Sonra. Hətta sovet dövründə də mən respublikamızda əsasən mətnsiz çıxış edirdim. Moskvada isə bir dəfə belə etdikdə, mənə dedilər ki, belə lazım deyil. Hamı çıxışını mətndən oxuyur, siz fərqlənmək istəyirsiniz? Bu, ona görə deyildi ki, mən fərqlənmək istəyirəm. Sadəcə olaraq, hər adamın öz vərdişi var, bu vərdiş isə məndə çoxdan yaranmışdır. Əgər sən işlədiyin, çalışdığın yerdəki həyatla həqiqətən yaşayırsansa, onda belə etmək olar. Əgər sən işi bilirsənsə, onunla hər gün məşğulsansa, onda bunların hamısı yaddaşında yığılır, fikirlərini formalaşdırır. Fikirlər isə bir gündə, tutalım, sənə haradasa çıxış etmək lazım olanda formalaşmır. Onlar tədricən formalaşır, yığılıb cəmləşir və gərək olduqda, lazım gəldikdə üzə çıxır. Mən belə təsəvvür edirəm.

### "Yoqla məşğul olmamışam"

Bütün çətinliklərə, bəzən səhhətindəki problemlərə baxmayaraq Heydər Əliyevin iş rejimi – hər gün 14–15 saat, bəzi hallarda daha çox işləməsi – məlum fakt idi. Bu qədər çalışmaq üçün gücü, enerjini haradan alması hamını təəccübləndirirdi–istər daxildə, istərsə də xaricdə.("SOBESEDNİK" QƏZETİNƏ MÜSAHİBƏSİNDƏN)

**Sual:** Görüşümüzün vaxt-vədəsindən belə başa düşürük ki, Sizin üçün asudə vaxt olduqca şərti anlayışdır.

**Cavab:** Həqiqətən belədir. Gördüyünüz kimi, indi gecədən xeyli keçib, saat ikinin yarısıdır. Biz isə işləyirik. Özü də təkcə bu gün yox, hər gün belədir, gecəni gündüzə qatıb çalışırıq. İşə səhər tezdən başlayıram, onu, bir qayda olaraq, gecə saat dörd radələrində qurtarıram. Əlbəttə, ölkədə vəziyyət elədir ki, gərək istirahət barəsində düşünməyəsən. Bir də ki, mən həmişə bu qayda ilə işləməyə öyrəşmişəm. Bu iş rejimi mənim üçün adi bir rejimdir.

**Sual:** Sirr deyilsə, Siz bu qüvvəni haradan alırsınız, axı bu yaxınlarda yetmiş yaşınız tamam oldu, yoxsa Sizə yoq kömək edir? Hər halda belə şayiələr gəzir.

**Cavab:** Xeyr, mən yoqla məşğul olmamışam və məşğul olmuram. Görünür, təbiətin özü mənə hansısa bir qüvvə verib. Xarakterim isə qüvvə və bacarığımı səfərbərliyə almağa vadar edir. Daha nə deyim? Ömrümdə heç vaxt siqaret çəkməmişəm. İçkini də rəmzi olaraq dilimə vurmuşam – sağlıq deyiləndə badəni ancaq qaldırmaqla kifayətlənmişəm.

### "Yəqin, bu da mənim günahımdır"

1999-cu İlin əvvəllərində ölkə liderinin xəstələnməsi xaricdə və ölkə ictimaiyyəti arasında ciddi narahatlıq yaratmışdı. Ulu öndər sağalandan sonra ictimaiyyət nümayəndələri ilə keçirdiyi görüşdə onun səhhəti ilə maraqlanan hər kəsə səmimi minnətdarlığını bildirmişdi:

– Mənim xəstələnməyim ölkəmizdə, ölkəmizin hüdudlarından kənarda da böyük narahatlıq hissi doğurmuşdur. Bu münasibətlə gələn məktublar, teleqramlar, edilən telefon zəngləri bunu aşkar göstərir. Mən orada düşünürdüm: ölkələr var ki, dövlət, hökumət başçısı xəstələnir də, istirahətə də gedir, müalicə də olunur. Bunlar hamısı təbii haldır. Ancaq o mənim bu müddətdə – mən 1993-cü ildən burada işləyirəm – cəmisi bir dəfə xəstələnməyim, nədənsə, dərhal böyük narahatlıq, həyəcan doğurmuşdur. Mən gördüm ki, insanlar, doğrudan da, çox böyük həyəcan hissi ilə yaşayırlar. Düşündüm ki, nə üçün? Ola bilər, ona görə ki, mən heç vaxt xəstələnməmişəm, işdən ayrılmamışam. İnsanlar hesab edirlər ki, Heydər Əliyev belə işləməlidir və o heç vaxt xəstələnməməlidir. Təbiidir, mənim obrazımın bu cür təsvir edilməsindən məmnunam. Ancaq o da təbiidir ki, insan xəstələnə də bilər, insan istirahət də etməlidir. Yenə də deyirəm, yəqin, bu da mənim günahımdır. Mən cəmiyyəti buna öyrətmişəm ki, Heydər Əliyev daim işləyir, heç vaxt xəstələnmir. Bu, həqiqətdir ki, mən son illər – həm Naxçıvanda, həm də Bakıda olarkən daim fasiləsiz işləmişəm, bir gün də istirahət etməmişəm. Bir bazar günü tapmaq mümkün deyildir ki, mən işdə olmayım. İl ərzində işlə məşğul olan hər bir adam istirahət etməlidir. Mən özümü bu istirahət hüququndan tam məhrum etmişəm. Görünür, bu da mənim səhvimdir. Təkcə özümə görə yox, mən istirahətsiz və fasiləsiz işlədiyimə görə mənim ətrafımda rəhbər vəzifədə işləyən şəxslərdə də – onların əksəriyyəti burada, bu salondadır – istirahət götürməyiblər, istirahətsiz, fasiləsiz işləyiblər. Beləliklə, mən nəinki özümə qəsd etmişəm, hətta ətrafımda yüksək vəzifədə işləyən insanların da, sizin səhhətinizə qəsd etmişəm. Mən indi artıq bunu anlayıram, dərk edirəm və sizə söz verirəm ki, həm özümün iş, istirahət rejimimi qaydaya salacağam, istirahət hüquqlarından istifadə etməyə çalışacağam və beləliklə, sizin üçün də belə şəraitlər yaranacaqdır. Görürsünüz, hər bir mənfi hadisənin müsbət tərəfləri də vardır.

### "Qaşınmayan yerdən qan çıxarırsınız?"

Görüşdə, həmçinin dövlət başçısı Vergilər Nazirliyinin fəaliyyətində mövcud olan nöqsanları ciddi tənqid etmişdi.

– Firmalar haqqında cürbəcür istintaqlar gedir. Bu istintaqları kəsmək lazımdır. Bizdə bu işlərə vergi xidməti nəzarət edir, Vergilər Nazirliyi var. Vergilər Nazirliyi hər bir firmanın, hər bir iş adamının vergini verməsini təmin etməlidir. Bizə başqa bir şey lazım deyildir – işləsin, vergisini versin. O biri tərəfdən də bizim gömrük orqanlarımız var – onlar da təmin etməlidir ki, gömrük rüsumları verilsin. Ondan sonra bu iş adamları ilə bizim işimiz olmamalıdır. Ancaq siz qaşınmayan yerdən qan çıxarırsınız. Təbiidir ki, mən bunu hamınıza aid etmirəm, məni düzgün başa düşün. Mən "siz, siz" deyəndə belə işlə məşğul olan adamlara deyirəm – həm burada oturanlara, həm də hüquq-mühafizə orqanlarındakılara deyirəm. Bunlardan əl çəkin! Ümumiyyətlə, iş adamları ilə nə istintaq aparırsınız? Bizim Vergilər Nazirliyi də düzgün iş görməlidir. Yoxlayırlar, yoxlamanın nəticəsini göndərirlər prokurorluğa. Elədir?

**Fazil Məmmədov (vergilər naziri):** Bəli.

**Heydər Əliyev:** Sən oraya niyə göndərirsən? Göndərirsən ki, orada onu soysunlar?

**Fazil Məmmədov:** Nəticəsi olmur.

**Heydər Əliyev:** Nəticəsi olmur, elədirmi? Sənin yoxlamanın nəticəsi odur ki, ondan vergini alasan. Vergini al. Sən onun işini dayandır, vergini al. Amma vergini verməyib, sən onu yoxlamısan, göndərirsən prokurorluğa, o da bir il bunu uzadacaqdır. Nə o, vergini verəcək, nə də dövlətin büdcəsinə bir şey gələcəkdir. Amma o, daha da çox əziyyət çəkəcəkdir. Ona görə bir təklif var idi ki, Vergilər Nazirliyində istintaq qurumu yaransın. Mən bu təklifi əvvəldən də bəyənmişəm. Fikirləşin, bu barədə təklifinizi verin

(ardı var)

**Faiq SADIQOV,**
**Əməkdar jurnalist**

## Jurnalistlər Ümummilli liderin məzarını ziyarət ediblər



**Milli mətbuatımızın 148 illiyi və 22 İyul – Milli Mətbuat Günü münasibətilə Azərbaycan Respublikası Audiovizual Şurası, Medianın İnkişafı Agentliyi, Azərbaycan Mətbuat Şurası, Azərbaycan Dövlət İnformasiya Agentliyi, "Xalq qəzeti" və digər çap və onlayn media orqanlarının nümayəndələri iyulun 20-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.**

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üzərinə tər güllər düzülüb.

## Professor Ulu öndərlə bağlı xatirələrini bölüşüb



**Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) "Heydər Əliyevin həyatının unikal səhifələri" mövzusunda tədbir keçirilib.**

Rektor professor Ədalət Muradov universitetdə "Heydər Əliyev İli" çərçivəsində silsilə tədbirlərin davam etdirildiyini bildirib. Heydər Əliyevin həyatının unikal səhifələrinə həsr olunan bugünkü tədbirin Ulu öndərin 33 il öncə, 1990-cı il iyulun 20-də Moskvadan Bakıya qayıtdığı günə təsadüf etdiyini diqqətə çatdırıb.

Sonra məşhur 91-lərdən olan professor Şahlar Əsgərovun Ulu öndər haqqında geniş oxucu kütləsinə məlum olmayan maraqlı faktları tədbir iştirakçıları ilə bölüşüb. O, Ümummilli lideri bütün ali keyfiyyətləri özündə birləşdirən maddi və mənəvi dəyərlərin yaradıcısı kimi xarakterizə edərək onunla bağlı xatirələrini danışıb

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 229** **Bakı şəhəri, 17 iyul 2023-cü il**

***“Azərbaycan Respublikasında kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi qaydaları”nın təsdiq edilməsi haqqında***

“İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2022-ci il 27 may tarixli 539-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 1998-ci il 19 iyun tarixli 729 nömrəli və “Kritik informasiya infra-strukturunun təhlükəsizliyinin təmin edilməsi sahəsində bəzi tədbirlər haqqında” 2021-ci il 17 aprel tarixli 1315 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 5 iyul tarixli 1738 nömrəli Fərmanının 1.1-ci bəndinin və 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Azərbaycan Respublikasında kritik informasiya infrastruk-turunun təhlükəsizliyinin təmin edilməsi qaydaları” təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 230** **Bakı şəhəri, 17 iyul 2023-cü il**

***“Kritik informasiya infrastrukturu obyektlərinin reyestrinin strukturu, yaradılması və aparılması qaydası”nın təsdiq edilməsi haqqında***

“İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2022-ci il 27 may tarixli 539-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 1998-ci il 19 iyun tarixli 729 nömrəli və “Kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi sahəsində bəzi tədbirlər haqqında” 2021-ci il 17 aprel tarixli 1315 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 5 iyul tarixli 1738 nömrəli Fərmanının 1.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Kritik informasiya infrastrukturu obyektlərinin reyestrinin struk-turu, yaradılması və aparılması qaydası” təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 231** **Bakı şəhəri, 18 iyul 2023-cü il**

***“İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıq və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi nəzərdə tutulan mal mövqelərinin siyahısı”nın təsdiq edilməsi haqqında***

“İnvestisiya təşviqi mexanizminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər, Azərbaycan Respublikası Prezidentinin “İnvestisi-yaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında” 2016-cı il 18 yanvar tarixli 745 nömrəli, “İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi Qaydası”nın təsdiq edilməsi, “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2016-cı il 19 yanvar tarixli 107-VQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 797 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” 2016-cı il 20 aprel tarixli 877 nömrəli fərmanlarında dəyişiklik edilməsi və “İnvestisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahələri, investisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğ və həyata keçiriləcəyi inzibati ərazi vahidləri”nin təsdiq edilməsi haqqında” 2016-cı il 20 aprel tarixli 878 nömrəli Fərmanının ləğv edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 20 dekabr tarixli 1913 nömrəli Fərmanının 3.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

“İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıq və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi nəzərdə tutulan mal mövqelərinin siyahısı” təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

*Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 232** **Bakı şəhəri, 19 iyul 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 31 oktyabr tarixli 145 nömrəli Qərarı ilə təsdiq edilmiş “Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası”nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 31 oktyabr tarixli 145 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 627; 2005, № 7, maddə 678; 2006, № 2, maddə 185, № 4, maddə 378, № 5, maddə 470, № 9, maddə 819, № 10, maddə 902; 2007, № 5, maddə 546, № 10, maddə 1026; 2008, № 2, maddə 114; 2010, № 7, maddə 700; 2011, № 7, maddə 737; 2012, № 2, maddə 178, № 11, maddələr 1203, 1212, № 12, maddə 1359; 2013, № 3, maddə 348, № 5, maddə 580; 2014, № 5, maddə 554, № 8, maddə 1005; 2015, № 5, maddə 669; 2016, № 2 (II kitab), maddə 389, № 7, maddə 1343, № 9, maddə 1585, № 11, maddə 1976; 2017, № 7, maddə 1499, № 12 (II kitab), maddə 2525; 2018, № 12 (II kitab), maddə 2760; 2019, № 3, maddə 516, № 4, maddələr 763, 781, № 8, maddə 1478; 2020, № 3, maddə 369, № 9, maddə 1206, № 10, maddələr 1273, 1304; 2021, № 2, maddə 207, № 3, maddə 274, № 9, maddə 1069; 2022, № 4, maddə 423, № 7, maddə 820, № 8, maddə 974) ilə təsdiq edilmiş “Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** Aşağıdakı məzmunda 1.5-1-ci bənd əlavə edilsin:

“1.5-1. Qeydiyyat şöbəsində və konsulluq idarəsində vətəndaşlıq vəziyyəti aktlarının, icra hakimiyyətinin nümayəndəliyində doğumun, nikahın bağlanmasının və ölümün dövlət qeydiyyatı aparılarkən yer adları mövcud olan inzibati ərazi vahidlərinin adlarına uyğun yazılır. Ermənistan Respublikasındakı yer adları isə Azərbaycanın tarixi toponimlərinə uyğun olaraq Azərbaycan Milli Elmlər Akademiyasının tövsiyələri nəzərə alınmaqla yazılır.”.

**2.** 9.11-ci bənd aşağıdakı redaksiyada verilsin:

“9.11. Verilən təkrar şəhadətnamələrdə və arayışlarda yer adları həmin sənədlərin verildiyi gün mövcud olan inzibati ərazi vahidlərinin adlarına uyğun yazılır. Təkrar şəhadətnamələrdə və arayışlarda Ermənistan Respublikasındakı yer adları yazılarkən bu Qaydanın 1.5-1-ci bəndinin tələbləri tətbiq edilir”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 233** **Bakı şəhəri, 19 iyul 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə” 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli və “Dezoksiribonuklein turşusu (DNT) analizinin aparılması üçün bioloji materialın götürülməsi, onun uçotu, saxlanılması, istifadəsi, verilməsi və məhv edilməsi Qaydası”nın təsdiq edilməsi barədə” 2019-cu il 22 aprel tarixli 188 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, “Uşaq hüquqları haqqında”, “Vəkillər və vəkillik fəaliyyəti haqqında”, “Təhsil haqqında”, “Sosial xidmət haqqında”, “Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında” və “Ümumi təhsil haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2022-ci il 27 dekabr tarixli 776-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155; 2019, № 3, maddələr 528, 534, 544, 563, 566, 568, № 4, maddə 753, № 5, maddələr 935, 945, 971, № 7, maddə 1325, № 8, maddə 1475, № 10, maddə 1677, № 11, maddə 1878, № 12, maddələr 2091, 2095; 2020, № 3, maddə 344, № 4, maddə 479, № 5, maddə 643, № 6, maddə 784, № 8, maddə 1134, № 9, maddə 1222, № 10, maddə 1273, № 11, maddələr 1403, 1408, № 12 (V kitab), maddələr 1589, 1597; 2021, № 2, maddə 203, № 3, maddələr 278, 288, 293, 300, 302, № 4, maddələr 395, 399, 404, 416, 417, 418, № 6 (IV kitab), maddə 695, № 7, maddələr 871, 874, № 8, maddələr 966, 973, № 9, maddə 1064, № 10, maddələr 1181, 1187, 1192, № 11, maddələr 1256, 1274, 1280, 1283; 2022, № 1, maddələr 53, 70, № 4, maddələr 377, 388, 398, 415, № 5, maddə 577, № 7, maddə 811, № 8, maddə 1026, № 9, maddələr 1085, 1101, № 10, maddə 1210, № 12, maddə 1552; 2023, № 2, maddə 320, № 4, maddə 588; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 26 may tarixli 170 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Qərarla təsdiq edilmiş “Azərbaycan Respublikasının büdcə xərclərinin funksional təsnifatına əlavə”nin “3.5.0. “Hüquqi yardım” köməkçi bölməsinə “tanınmış” sözündən sonra “, həmçinin cinsi istismar və ya cinsi zorakılıq qurbanı olmuş və cinayət prosesində öz hüquqlarını müstəqil həyata keçirən və pulsuz hüquqi yardım göstərilməsini tələb edən uşaqlara xidmət göstərən” sözləri əlavə edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş “Azərbaycan Respublikasının büdcə xərclərinin iqtisadi təsnifatına əlavə”nin “222970. “Məhkəmə və mediasiya prosesi ilə bağlı xidmətlərin ödənilməsi” maddəsinin birinci cümləsində və “222971. “Hüquqi yardım” yarımmadəsində “ölmüş, zərər çəkmiş şəxsin” sözləri “ölmüş zərər çəkmiş şəxsin” sözləri ilə əvəz edilsin, “tanınmış” sözündən sonra “, həmçinin cinsi istismar və ya cinsi zorakılıq qurbanı olmuş və cinayət prosesində öz hüquqlarını müstəqil həyata keçirən və pulsuz hüquqi yardım göstərilməsini tələb edən uşaqlara xidmət göstərən” sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 22 aprel tarixli 188 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanun-vericilik Toplusu, 2019, № 4, maddə 779; 2020, № 11, maddə 1408) ilə təsdiq edilmiş “Dezoksiribonuklein turşusu (DNT) analizinin aparılması üçün bioloji materialın götürülməsi, onun uçotu, saxlanılması, istifadəsi, verilməsi və məhv edilməsi Qaydası”nın 2.3.1-ci yarımbəndinə və 3.4-cü bəndinə “əleyhinə cinayət” sözlərindən sonra “, o cümlədən uşaqlara qarşı cinsi istismar və ya cinsi zorakılıqla bağlı cinayət” sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 234** **Bakı şəhəri, 19 iyul 2023-cü il**

***“Azərbaycan Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda nəqliyyat vasitələrindən istifadə qaydalarının təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin strukturunun təkmilləşdirilməsi və “Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 sentyabr tarixli 278 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 8 fevral tarixli 2035 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 7, maddə 747; 2012, № 8, maddələr 827, 830; 2013, № 3, maddə 347, № 7, maddə 886, № 8, maddə 1017, № 10, maddə 1218; 2014, № 1, maddələr 51, 69, № 2, maddə 201, № 4, maddə 441, № 5, maddələr 572, 594, № 6, maddə 747, № 8, maddə 1015, № 12, maddələr 1658, 1666; 2015, № 2, maddə 227, № 11, maddə 1417; 2016, № 3, maddə 609, № 4, maddə 831, № 5, maddə 955, № 7, maddə 1353, № 8, maddə 1437, № 9, maddələr 1585, 1589, № 12, maddə 2241; 2017, № 5, maddə 966, № 10, maddələr 1890, 1919, № 11, maddə 2168, № 12 (II kitab), maddələr 2476, 2487, 2507; 2018, № 3, maddələr 588, 632, № 6, maddə 1374, № 7 (II kitab), maddə 1668, № 8, maddə 1807, № 9, maddə 1906, № 10, maddələr 2142, 2172, № 11, maddə 2426; 2019, № 3, maddələr 529, 563; 2020, № 2, maddə 204, № 4, maddə 500, № 5, maddə 652, № 8, maddə 1123, № 9, maddə 1217, № 10, maddələr 1258, 1296, № 11, maddə 1405, № 12 (V kitab), maddə 1616; 2021, № 2, maddə 203, № 3, maddələr 265, 276, № 4, maddə 420, № 6 (IV kitab), maddə 682; 2022, № 1, maddə 59, № 3, maddə 277, № 4, maddələr 387, 411, № 5, maddə 544, № 6, maddə 683, № 7, maddə 811, № 9, maddələr 1083, 1109, № 11, maddə 1356, № 12, maddələr 1552, 1560; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 may tarixli 167 nömrəli Qərarı) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - “Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti və məhkəmə orqanlarının aparatları (hərbi qurumlar, dövlət təhlükəsizliyi, xarici kəşfiyyat xidmətləri, hüquq mühafizə və prokurorluq orqanları, rayon (şəhər) məhkəmələri istisna olmaqla), mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, onların yanında, tabeliyində olan orqanlar, mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin, dövlət xidmətlərinin aparatları və onların yerli bölmələri üçün xidməti minik avtomobillərinin say həddi (limiti)”nin cədvəlinin 5-1-ci hissəsinin “cəmi” sütununda “3” rəqəmi “11” rəqəmləri ilə əvəz edilsin və “ərazi və yerli bölmələr üzrə” sütununa “8” rəqəmi əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Türkiyənin Jandarm nümayəndə heyəti Azərbaycanda



**Azərbaycan Respublikasının Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun dəvəti ilə Türkiyə Respublikası Jandarm Baş Komandanının müavini ordu generalı Ali Çardakçının başçılıq etdiyi nümayəndə heyəti ölkəmizə rəsmi səfərə gəlib.**

Nazirliyin mətbuat xidmətindən bildirilib ki, Ali Çardakçı və onu müşayiət edən şəxslər Fəxri xiyabana gedərək xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi önünə tər çiçək dəstələri düzüb, Ulu öndərin əziz xatirəsini ehtiramla yad ediblər.

Daha sonra qonaqlar Şəhidlər Xiyabanındakı “Əbədi məşəl” kompleksini və Türk Şəhidliyini ziyarət ediblər.

İyulun 20-də Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov ordu generalı Ali Çardakçının rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Nazir Azərbaycanın Türkiyə ilə əlaqələrinin hər zaman yüksələn xətlə inkişaf etdiyini, ulu öndər Heydər Əliyevin bu sahədəki xidmətlərini, onun “Bir millət, iki dövlət” siyasətinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirildiyini, dövlət başçılarının siyasi iradəsi və qarşılıqlı səfərləri nəticəsində dost və qardaş ölkələrimiz arasındakı münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu məmnunluqla xatırladıb.

Nazir rəhbərlik etdiyi qurumun Türkiyənin Daxili İşlər Nazirliyi, o cümlədən Jandarm Baş Komandanlığı ilə münasibətlərin əməkdaşlığın genişləndirilməsinə böyük önəm verildiyini, Daxili Qoşunların formalaşmasında, ən müasir tələblərə cavab verən quruma çevrilməsində, şəxsi heyətin peşəkarlığının daha da yüksəldilməsində Türkiyə Jandarm Baş Komandanlığının böyük xidməti olduğunu xüsusi vurğulayaraq buna görə təşəkkürünü bildirib.

Səmimi qəbula və ətraflı məlumata görə minnətdarlığını bildirən ordu generalı Ali Çardakçı Azərbaycana səfərindən, Bakının dünyanın ən gözəl paytaxtlarından, ən təhlükəsiz şəhərlərindən biri olmasından, ölkəmizin dinamik, sürətli inkişafından, eyni zamanda, Daxili Qoşunların yüksək peşəkarlığa və döyüş qabiliyyətinə malik mobil bir quruma çevrilməsindən məmnun olduğunu bildirib.

O, iki ölkənin müvafiq orqanları arasındakı faydalı işbirliyini yüksək qiymətləndirib, “Bir millət, iki dövlət” olaraq Türkiyənin hər zaman Azərbaycanın yanında yer aldığını, ordusunun, Daxili Qoşunlarının inkişafı üçün bundan sonra da səylərini əsirgəməyəcəklərini, əməkdaşlığın, təcrübə mübadiləsinin qardaş xalqlarımızın və ölkələrimizin mənafelərinə xidmət etdiyini vurğulayıb.

Görüşdə tərəfləri maraqlandıran bir sıra məsələlər müzakirə edilib.

Daxili Qoşunların Baş İdarəsində Daxili işlər nazirinin müavini – Daxili Qoşunların komandanı general-leytenant Şahin Məmmədovun ordu generalı Ali Çardakçının rəhbərlik etdiyi nümayəndə heyəti ilə də görüşü olub.

General-leytenant Şahin Məmmədov Türkiyə Jandarm Baş Komandanlığı ilə Daxili İşlər Nazirliyinin Daxili Qoşunları arasında dostluq və hərbi əməkdaşlıq münasibətlərinin daha da genişləndiyini qeyd edib, qonaqlara Qoşunların Vətən müharibəsindəki döyüş yolu və inkişafı barədə ətraflı məlumat verib.

Səfər çərçivəsində dost və qardaş ölkənin nümayəndə heyəti Daxili Qoşunların Ali Hərbi Məktəbində təlim-tədrisin təşkili, kursantlar üçün yaradılmış şərait, o cümlədən Bakı şəhərində yerləşən “N” saylı hərbi hissələrlə tanış olublar.

***“Xalq qəzeti”***

# İlin sonunadək Macarıstana təbii qaz nəqlinə başlanılacaq



## *Respublikamızdan dost ölkəyə 100 milyon kubmetrlik “mavi yanacaq” nəql ediləcək*

**Macarıstanın “MVM CEEnergy Zrt.” və Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) arasında qaz tədarükü barədə saziş imzalanıb. SOCAR-ın məlumatında həmin sazişə əsasən artıq 2023-cü ilin dördüncü rübündən etibarən respublikamızdan bu ölkəyə təbii qazın nəqlinə başlanılacağı bildirilib.**

“MVM CEEnergy Zrt.”in məlumatında Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyartonun iki ölkənin qaz tədarükü üzrə saziş bağlamasını yüksək dəyərləndirib. Nazir, eyni zamanda, Rumıniya, Bolqarıstan, Türkiyə, Serbiya, eləcə də Yunanıstan və Slovakiya ilə birgə regionun enerji infrastrukturunun modernləşdirilməsinin mümkün olacağına, həmçinin ölkəsinin alternativ enerji mənbələrinə çıxış əldə edəcəyinə ümidini də vurğulayıb.

Xatırladaq ki, Azərbaycanın Cənub Qaz Dəhlizi (CQD) ilə Avropaya qaz tədarükü 2020-ci il dekabrın 31-dən reallaşır. Trans–Adriatik Boru Kəmərinin (TAP) ilkin buraxılış gücünün 20 milyard kubmetrədək genişləndirilmə potensialı ildə 10 milyard kubmetr təşkil edir.

Energetika naziri Pərviz Şahbazov ilə Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto arasında keçirilən görüşdə də Azərbaycan ilə bu ölkə arasında ikitərəfli və çoxtərəfli əsasda enerji tərəfdaşlığının inkişafından ətraflı danışılıb, təbii qaz və “yaşıl enerji”nin tədarükü üzrə fikir mübadiləsi aparılıb. “Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında “yaşıl enerji”nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq sazişi, “Bolqarıstan, Rumıniya, Macarıstan və Slovakiyanın ötürücü sistem operatorları və SOCAR arasında əməkdaşlığa dair Anlaşma Memorandumu”, həmçinin “SOCAR” ilə “MVM CEEnergy Zrt.” arasında 100 milyon kubmetr həcmində təbii qazın satışına dair müqavilə”nin icra vəziyyəti nəzərdən keçirilib.

Görüşdə yuxarıda vurğulandığı kimi, Macarıstana qaz təchizatının ilin sonuna kimi başlanacağı bildirilib. Azərbaycandan Avropaya qaz tədarükünün artırılması üçün infrastrukturun inkişafı ilə bağlı proseslərin sürətləndirilməsinin vacibliyi də xatırladılıb. Söhbət zamanı Xəzər dənizində “yaşıl enerji”nin istehsalını, bu enerjinin ötürülməsi üçün müxtəlif xətlərin, Qara dənizin dibi ilə kabelin çəkilməsini, bazarlara çatdırılmasını əhatə edən “yaşıl enerji” dəhlizi layihəsinin texniki iqtisadi əsaslandırması və digər zəruri tədbirlərlə bağlı geniş fikir mübadiləsi edilib.

Ekspertlərin fikrincə, Macarıstan respublikamızla birgə “yaşıl dəhliz” layihəsini də maliyyələşdirməyə maraqlıdır. Ona görə də iki ölkə arasında əlaqələrin təbii qaz sahəsində özünü yüksək səviyyədə doğruldur, bununla belə Azərbaycan bərpaolunan enerji sahəsində də böyük potensiala malikdir. Ümumiyyətlə, bu, Cənubi Qafqazdan “yaşıl elektrik” enerjisinin Gürcüstan və Rumıniya vasitəsilə Macarıstana ötürülməsi burada enerji təchizatının şaxələndirilməsi, eyni zamanda, təmin edilməsi üçün əlverişli bir imkandır.

Qara dəniz sualtı kabel layihəsinin həyata keçirilməsi ilə bağlı artıq texniki və maliyyə məsələlərinin nəzərdən keçirilməsinə başlanılıb. Bununla da, 1200 kilometr uzunluğunda dünyanın ən uzun sualtı kəmərinin tikintisi nəzərdə tutulub. olacağı .

Xatırladaq ki, Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında “yaşıl” enerjinin inkişafı və təchizatı sahəsində strateji tərəfdaşlıq haqqında saziş ötən ilin dekabrında Buxarestdə (Rumıniya) imzalanıb.

Yeri gəlmişkən, Azərbaycanla Macarıstan arasında əməkdaşlıq təkcə qaz tədarükü, eləcə də “yaşıl” enerjinin inkişafı və təchizatı ilə məhdudlaşmır. İki ölkə arasında sənaye, nəqliyyat, informasiya texnologiyaları, kənd təsərrüfatı, ticarət və s. sahələrdə də əlaqələrin gücləndirilməsi üçün əlverişli şərait var və bu potensialın reallaşdırılması məqsədilə zəruri tədbirlər görülür. Bu, isə Azərbaycan-Macarıstan əlaqələrinin getdikcə genişlənməsini, iqtisadi sahədə yüksək nəticələrin əldə edilməsini şərtləndirir.

Bu gün ölkələrimiz arasında iqtisadi əlaqələrdə davamlı inkişaf özünü qabarıq büruzə verir. Geniş iqtisadi potensiala malik bu dövlətlərin iqtisadi əməkdaşlığının daha da genişlənməsində imzalanmış strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə, habelə iqtisadi sahəni əhatə edən bir sıra digər sənədlər əhəmiyyətli baza rolunu oynayır. Azərbaycanda 21 Macarıstan investisiyalı şirkətin fəaliyyət göstərməsi, bu ölkənin respublikamıza 1,1 milyard ABŞ dolları məbləğində, Azərbaycanın isə dost ölkəyə 18,1 milyon ABŞ dolları həcmində investisiya yatırması bunun məntiqi nəticəsidir.

Son illər ərzində iki ölkə arasında ticarət əlaqələri də dinamik şəkildə genişlənib. Belə ki, 2021-ci ildə Azərbaycan ilə Macarıstan arasında ümumi ticarət dövriyyəsi 35,16 milyon ABŞ dolları təşkil edib. Ötən il isə bu göstərici 47,4 milyon ABŞ dolları səviyyəsinə yüksəlib. Bununla da hesabat ilində əmtəə dövriyyəsi 2021-ci illə müqayisədə 34,81 faiz artıb.

İki ölkə arasında nəqliyyat, tranzit və logistika sahələrində də əməkdaşlıq daim diqqətdə saxlanılıb. Bu məqsədlə 2022-ci ildə Ələt Azad İqtisadi Zonası və Macarıstan İxracın Təşviqi Agentliyi arasında Anlaşma Memorandumu imzalanıb. Eyni zamanda, dəmir yolları vasitəsilə artıq Macarıstandan Azərbaycana, həmçinin əks istiqamətə yüklərin ötürülməsinə başlanılıb.

Hazırda Macarıstan şirkətləri tərəfindən işğaldan azad edilmiş Azərbaycan ərazilərində aparılan bərpa-quruculuq işlərinə böyük maraq göstərilir, bununla bağlı ölkəmizə müvafiq layihələr təqdim edilir. Döst dövlət düşməndən təmizlənən torpaqlarımızda minatəmizləmə əməliyyatında da dəstəyini əsirgəmir. Macarıstanın bu məqsədlə Azərbaycana 25 min avro ianə etməsi də bunun bariz ifadəsidir.

Macarıstan Azərbaycan ilə enerji sahəsində də əməkdaşlığa böyük əhəmiyyət verir və Avropanın enerji təhlükəsizliyinin təminatında ölkəmizin oynadığı mühüm rolu daim təqdir edir. Bu ölkə Cənub Qaz Dəhlizi (CQD) layihəsini dəstəkləyir və ona qoşulmasının əhəmiyyətini yüksək dəyərləndirir.

Onu da qeyd edək ki, dövlətimizin başçısı İlham Əliyev və Avropa Komissiyasının prezidenti xanım Ursula Fon der Lyayen tərəfindən 2022-ci ilin iyulun 18-də enerji sahəsində Strateji Tərəfdaşlığa dair imzalanan Anlaşma Memorandumuna əsasən Azərbaycan 2027-ci ilə qədər təbii qazın təchizat həcmini ən azı iki dəfə artırmağı planlaşdırıb. Bu sənəd, eyni zamanda, Azərbaycan ilə Avropa İttifaqı arasında bərpaolunan enerji sahəsində əməkdaşlığın inkişaf etdirilməsini qarşıya mühüm vəzifə kimi qoyub. Həmçinin ötən il dekabrın 17-də Buxarestdə Azərbaycan, Macarıstan, Rumıniya və Gürcüstan hökumətləri arasında “yaşıl enerji” sahəsində strateji tərəfdaşlığa dair müvafiq saziş imzalanıb. Saziş bu ölkələr arasında “yaşıl enerji”nin ötürülməsi məqsədilə Gürcüstan və Qara dənizdən keçəcək sualtı elektrik enerjisi kabelinin çəkilməsi (Qara dəniz sualtı elektrik enerjisi xətti) layihəsinin reallaşdırılmasını nəzərdə tutub.

Bu layihənin implementasiyası region və Avropa bazarları arasında elektrik enerjisinin ixracı imkanlarının genişləndirilməsi, eləcə də Xəzər dənizin Azərbaycan sektorundakı böyük külək enerjisi potensialı sayəsində Avropanın enerji təhlükəsizliyinin diversifikasiyası baxımından mühüm rol oynayacaq.

***Vaqif BAYRAMOV, “Xalq qəzeti”***

## Naxçıvan MR-də vergi daxilolmaları 36 faiz artıb

**Naxçıvan Muxtar Respublikasında (MR) vergi daxilolmalarında müsbət dinamika davam edir.**



Dövlət Vergi Xidmətindən bildirilib ki, cari ilin 6 ayında muxtar respublikanın Dövlət Vergi Xidmətinin xətti ilə büdcəyə 75,9 milyon manatdan artıq vergi daxil olub. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 36 faiz və ya 20 milyon manat çoxdur.

Təkcə bu ilin iyun ayı üzrə vergi daxilolmalarında 2022-ci ilin müvafiq dövrünə nisbətən 20,8 faiz və ya 2,2 milyon manat artım qeydə alınıb.

## I yarımildə 400 milyon manatdan çox borc qaytarılıb

**Bu ilin I yarısında Azərbaycanın dövlət büdcəsi xərclərinin 9 milyard 718,8 milyon manatı və yaxud 69,1 faizi cari xərclər, 3 milyard 913,7 milyon manatı və yaxud 27,8 faizi əsaslı xərclər, 430,8 milyon manatı və yaxud 3,1 faizi isə dövlət borcuna və öhdəliklərinə xidmətlə bağlı xərclər olub.**



Maliyyə Nazirliyinin məlumata görə, bunlar ötən ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 11,5 faiz çox, 13,9 faiz çox və 45,3 faiz azdır.

Yanvar-iyun aylarında dövlət borcuna xidmətlə bağlı xərclərin 352,7 milyon manatı xarici, 78,1 milyon manatı isə daxili dövlət borcuna xidmət xərcləri olub.

***“Xalq qəzeti”***



## Güzəştli kreditlərin 75,5 faizi regionların payına düşür

***Cari ilin ötən ayları ərzində Sahibkarlığın İnkişafı Fondu tərəfindən verilən 33,3 milyon manat güzəştli kreditin 24,5 faizi və ya 12,7 milyon manatı Bakı şəhəri və Abşeron, 75,5 faizi və ya 39,2 milyon manatı isə digər iqtisadi rayonların payına düşüb.***

Qeyd edək ki, hesabat dövründə 971 layihənin maliyyələşdirilməsinə ayrılan 51,9 milyon manat güzəştli kredit hesabına 765 yeni iş yerinin yaradılması nəzərdə tutulur.

## Qazaxıstana ixrac 3 dəfəyədək artıb

***Dövlət Gömrük Komitəsindən aldığımız məlumata görə, yanvar–iyun aylarında ölkəmizin Qazaxıstana ixracı 60 milyon 180 min dollar təşkil edib.***



Bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,6 dəfə və ya 36 milyon 956 min dollar çoxdur. Ötən ilin müvafiq dövründə Azərbaycandan Qazaxıstana 23 milyon 224 min dollar dəyərində məhsul ixrac olunub.

Hesabat dövründə Qazaxıstandan respublikamıza idxal edilən məhsulun dəyəri illik müqayisədə 48 faiz azalaraq 157 milyon 970 min dollara bərabər olub. Cari ilin yanvar-iyun aylarının nəticələrinə görə, ölkənin ümumi ticarət dövriyyəsində Qazaxıstanla ticarətin payı 0,83 faiz təşkil edib.

***“Xalq qəzeti”***

# Azərbaycan “yaşıl keçid”in önündə gedir

**Avropanın etibarlı enerji tərəfdaşı kimi mövqeyini getdikcə gücləndirən Azərbaycan “yaşıl keçid” platformasının da əsas iştirakçılarından birinə çevrilib. Son illər Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən enerji təhlükəsizliyi siyasətinin əsas hədəflərindən biri də məhz ölkəmizdə bərpaolunan enerji mənbələrinin potensialından səmərəli istifadənin gücləndirilməsindən ibarətdir.**



Azərbaycanın alternativ və bərpaolunan enerji potensialı isə olduqca yüksəkdir. Belə ki, son tədqiqatlar ölkəmizdə 27,5 min meqavat həcmində bərpaolunan enerji potensialının mövcudluğunu təsdiqləyib. Bunun isə 3 min meqavatı külək enerjisinin, 23 min meqavatı günəş enerjisinin, 380 meqavatı bioenerjinin, 520 meqavatı isə dağ çaylarının payına düşür. Bütövlükdə isə, hazırda Azərbaycanın ümumi enerji istehsalında bərpaolunan enerji payı 17,3 faiz təşkil edir.

Yeri gəlmişkən, “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də ölkəmizdə “yaşıl enerji” istehsalının genişləndirilməsi məsələsinə də xüsusi yer ayrılıb. Belə ki, ümumi enerji istehsalında bərpaolunan enerji payının 2025-ci ildə 24 faiz, 2030-cu ildə isə 30 faizə çatdırılması nəzərdə tutulur.

Prezident İlham Əliyevin yeni enerji siyasətinin əsas istiqamətlərindən biri də Azərbaycanın Avropanın dekarbonizasiyasında fəal iştirakını təmin etməkdən ibarətdir. Bununla ölkəmiz, həm də Avropaya yeni enerji körpüsü salmaqla “köhnə qitə”nin mühüm elektrik enerjisi, əsasən də, “yaşıl enerji” təchizatçısına çevrilməyi hədəfləyir. Bunun isə yaxın illərdə reallaşacağı şübhəsizdir. Çünki bu istiqamətdə artıq ilk ciddi addımların atılmasına başlanılıb. Məlum olduğu kimi, 2022-ci il dekabrın 17-də Buxarestdə “Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş” imzalanıb. Əldə edilən razılaşma çərçivəsində Qara dəniz enerji sualtı elektrik kabelinin tikintisi nəzərdə tutulur. Həmin kabel Azərbaycanda hasil edilən “yaşıl” elektrik enerjisini Gürcüstan və Qara dəniz vasitəsilə Macarıstana və Avropanın qalan hissəsinə çatdırmaq üçün Rumıniyaya tədarük edəcək. Sözügedən saziş Azərbaycanın “yaşıl enerji”sinin Avropaya çatdırılmasını nəzərdə tutur. Sazişə əsasən, Qara dənizin dibi ilə 4 qiqavat gücündə və 1195 kilometr uzunluğunda elektrik enerjisi kabeli çəkiləcək. Bu da ölkəmizdə istehsal olunan “yaşıl enerji”ni Avropaya ixracına imkan yaradacaq. Beləliklə də, Azərbaycan Avropa qitəsinin enerji təhlükəsizliyini daha dolğun və əhatəli şəkildə təmin edilməsində yaxından iştirak edəcək.

Yeri gəlmişkən, Oksford Enerji Tədqiqatları İnstitutunun baş elmi işçisi Culian Bouden bugünlərdə mətbuata açıqlamasında deyib ki, Avropanı “yaşıl enerji” ilə təmin etmək üçün Qara dənizin dibi ilə elektrik kabelinin çəkilməsi layihəsinin həyata keçirilməsi Azərbaycanın etibarlı enerji təchizatçısı kimi rolunu gücləndirəcək. Bu layihənin iddialı olduğunu hesab edən mütəxəssis bunun üçün, ilk növbədə, texniki və kommersiya məsələlərinin həllinin, fiziki kabel çəkməyin lazım olduğunu bildirib. “Bu marşrut boyunca təchizat üçün elektrik enerjisi istehsalını təmin etmək lazımdır. Əgər bütün bunlar həyata keçirilə bilərsə, o zaman bu layihə Azərbaycanın Avropa üçün etibarlı enerji təchizatçısı kimi rolunu gücləndirməyə kömək edəcək”, – deyə Bouden bildirib.

Bütövlükdə isə, ölkəmizin Avropanın dekarbonlaşdırılmasına verdiyi töhfədən danışan ekspert Azərbaycan qazının Avropada kömür istehlakının azaldılmasında, beləliklə, dekarbonizasiyada rol oynadığını vurğulayaraq deyib: “Biz hamımız karbonsuz gələcəyə doğru gedirik və bütün ölkələr bu prosesin müxtəlif mərhələlərindədir. Azərbaycan bir növ şanslıdır ki, kömürü öz enerji balansından çıxarmaq məcburiyyətində deyil–ölkə bunu onilliklər öncə edib”, – deyə o əlavə edib. Tədqiqatçı alim açıqlamasında, həmçinin qeyd edib ki, hazırda Azərbaycan külək və günəş enerjisi sahəsində layihələr həyata keçirməyə başlayır, ölkənin Avropanın əsas “yaşıl enerji” təchizatçısı olması üçün hələ çox yolu var.

Bütövlükdə isə, ekspertlər Qara dəniz kabelinin çəkilməsini nəzərdə tutan bu layihənin Avropa və Qafqaz regionunda enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə, bərpaolunan enerji sektorunun inkişafına və tranzit imkanlarının artırılmasına töhfə verəcəyi qənaətindədirlər. Onlar hesab edirlər ki, bu anlaşma Qara dəniz hövzəsində milli və regional enerji təhlükəsizliyinin güclənməsi, təchizat mənbələrinin şaxələndirilməsi, Xəzərdə bərpaolunan enerji istehsalı potensialının kapitallaşdırılması ilə bağlı dörd ölkə arasında əməkdaşlığın əsasını qoyacaq.

***Mirbağır YAQUBZADƏ, “Xalq qəzeti”***

### Ekspert rəyi

**İlham ŞABAN,**
**Neft Araşdırmaları Mərkəzinin rəhbəri**



Azərbaycan 2021-ci ildən öz qaz həcmləri ilə Avropa məkanına daxil olub. Əgər həmin il Avropa bazarına 8 milyard 153 milyon kubmetr “mavi yanacaq” ixrac etmişdiksə, sonrakı ildə bu həcm 11,4 milyard kubmetr təşkil edib. Bu ilin birinci yarımilliyinin göstəricisini də əlavə etsək, “köhnə qitə”yə, hardasa, 25 milyard kubmetrdən çox qaz satdığımızı deyə bilərik. Bu həcmlər real olaraq Avropa bazarlarına öz töhfəsini verib. Çünki əgər bu olmasaydı, Avropa ya kömürdən, ya atomdan, ya da odundan istifadə edəcəkdi. Bununla da, ətraf mühitə ziyan vurmuş olacaqdı.

Düzdür, müəyyən qədər “yaşıl enerji”dən istifadə etsəydi belə, ancaq karbon emissiyasının artımının qarşısını almaq mümkün olmazdı. Deməк, biz emissiyaların azaldılmasında müəyyən dərəcədə iştirak etmişik. Yəni biz ənənəvi enerji ixracı ilə onların ekologiyasına, bütövlükdə isə, dünya üzrə dekarbonizasiyaya töhfə vermişik.

Hələlik, Azərbaycan Avropa bazarlarına “yaşıl enerji” ixrac etmir. Çünki hazırda bunun üçün nə infrastruktur var, nə də əlimizdə hansısa bir həcm yoxdur ki, onu ixrac edə bilək. Şübhəsiz, yaxın illərdə belə imkanımız olacaq. Əsas odur ki, Azərbaycan özü üçün o yolu indidən müəyyənləşdirib. Bu istiqamətdə, yəni ənənəvi enerjinin azaldılması, “yaşıl enerji” yönümündə bir yol xəritəsi var. Ölkəmiz artıq bu istiqamətdə ilkin addımlarını atır.

Əslində, Azərbaycan 2010-cu ildən sonra dünyada dekarbonizasiya prosesinə böyük töhfələr verməyə başlayıb. Nəzərə alaq ki, emissiyaların artmasına ən çox neft təsir edir. Əgər 2010-cu ildə ölkəmizdə 50,8 milyon ton hasil edilibsə, hazırda bu həcm, təqribən, 30 milyon tonadək azalıb. Təsəvvür edin, 13 ildə hasilatı 20 milyon ton azaltmışıq. Maye karbohidrogenin bu qədər azaldılması isə, heç şübhəsiz, dekarbonizasiyaya böyük bir töhfədir. Göründüyü kimi, məsələ heç də “yaşıl enerji” istehsalını artırmaqda deyil. Digər tərəfdən, 2010-cu ildə biz 15 milyard kubmetrdən də az əmtəəlik qaz istehsal etmişdiksə, artıq bu həcm 36 milyard kubmetrə çatdırılıb. Bu isə Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təminatına verdiyi böyük töhfədir. Yaxın illərdə isə ölkəmiz özünün bərpaolunan enerji potensialını hərəkətə gətirməklə Avropanın “yaşıl enerji” ilə təminatına, bütövlükdə isə, dekarbonizasiya prosesinə real töhfə verəcək.

# Həsən Bəy Zərdabinin məzarı ziyarət olundu



**Dünən Milli Mətbuat Günü münasibətilə Azərbaycan Respublikası Audiovizual Şurası, Medianın İnkişafı Agentliyi, Azərbaycan Mətbuat Şurası digər çap və onlayn media orqanlarının nümayəndələri Azərbaycan milli mətbuatının banisi, "Əkinçi" qəzetinin naşiri və redaktoru, Azərbaycan milli məfkurəsinin əsaslarını yaradanlardan biri olan Həsən bəy Zərdabinin məzarı önünə əklil və tər güllər qoyulub, böyük mütəfəkkirin xatirəsi ehtiramla yad edilib.**

***“Xalq qəzeti”***

**Milli mətbuat – 148**

# Mediada transformasiya: klassik jurnalistikadan çağdaş informasiya məkanına

**İyulun 20-də Bakıda Azərbaycan milli mətbuatının 148 illiyinə həsr olunmuş “Media qlobal transformasiyalar dövründə: ənənələrdə varislik, jurnalistika prinsipləri və ictimai maraqlar” mövzusunda konfrans keçirilib.**



Azərbaycan Respublikası Audiovizual Şurasının, Medianın İnkişafı Agentliyinin, Mətbuat Şurasının birgə təşkilatçılığı ilə reallaşan konfrans Dövlət Himninin səsləndirilməsi və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olmuş Vətən övladlarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Mətbuat Şurasının sədri Rəşad Məcid bildirib ki, ulu öndər Heydər Əliyevin sovet vaxtı həyata keçirdiyi işlər məhz müstəqillik yolunda atılmış addımlar idi. Müstəqillik dövründə Ümummilli liderin mətbuata verdiyi önəmin şahidi olduq. Həmin dövrdə 100 ildən artıq mövcud olan senzura ləğv edildi, mətbuat üçün yeni şərait yaradıldı. Mətbuatın özünü tənzimləməsi istiqamətində qərarlar, qanunlar qəbul edildi. Ulu öndər, həmçinin mətbuat nümayəndələri ilə mütəmadi görüşlər keçirirdi.

Medianın İnkişafı Agentliyinin şöbə müdiri Natiq Məmmədli bildirib ki, “Media haqqında” Qanunun və aparılan islahatların bu sahəyə gətirdiyi yeniliklərdən biri bütün media subyektlərinin biznes mühitinə keçidini sürətləndirmək idi. Bu islahatlarla Azərbaycan mətbuatında vergi tətilləri tətbiq edildi, media reyestri yaradıldı. Media qanunvericiliyinin təkmilləşdirilməsinin, media islahatlarının əsas məqsədi bu sahədə inkişafa nail olmaqdır. Bu proses davamlı xarakter daşıyacaq.

Audiovizual Şuranın sədri İsmət Səttarov qeyd edib ki, media sahəsində aparılan bütün islahatların kökündə dayanan amil dövlətə və dövlətçiliyə xidmət, medianın inkişafına nail olmaqdır. İnformasiya və kommunikasiya texnologiyalarının sürətlə inkişaf etdiyi dövrdə media işçilərinin üzərinə daha böyük məsuliyyət düşür – qloballaşan dünyada qlobal təhdidlərə qarşı çıxmaq, texnoloji inkişafın verdiyi bütün imkanlardan istifadə edərək Azərbaycan həqiqətlərini dünyada səsləndirmək. “Düşünürəm ki, jurnalistlərimiz, media nümayəndələrimiz bu missiyanın öhdəsindən fəxrlə və böyük məsuliyyətlə gələcəklər”, – deyə İ.Səttarov vurğulayıb.

Sonra Mətbuat Şurasının sədr müavini Səadət Məmmədovanın moderatorluğu ilə “Azərbaycanın milli mətbuatı: ənənə və müasir trendlər” mövzusunda panel iclas keçirilib. İclasda “Şərq” qəzetinin baş redaktoru Akif Aşırlı “Milli mənlik şüurumuzun oyanışı və müstəqil dövlət quruculuğunda medianın rolu”, “Xalq qəzeti”nin baş redaktoru Əflatun Amaşov “Ulu öndər Heydər Əliyevin media islahatları: qanunvericilik və plüralizm”, Medianın İnkişafı Agentliyinin əməkdaşı Pərvanə İbrahimova “Media savadlılığı cəmiyyətin informasiya təhlükəsizliyinin vacib elementi kimi”, Jurnalistlərin Həmkarlar İttifaqının rəhbəri Müşfiq Ələsgərli “Jurnalist peşəkarlığında xarici standartlar: beynəlxalq media qurumları ilə təmaslar və təcrübə mübadiləsi” mövzularında çıxışlar ediblər.

Konfrans işini “APA Holdinq”in rəhbəri Vüsalə Mahirqızının moteratorluğu ilə “Mediada müasir transformasiya, informasiyalı cəmiyyət amili və ictimai maraqlar” adlı panel iclası ilə davam etdirib. İclasda Audiovizual Şuranın Aparat rəhbəri Fazil Novruzovun “Müasir Audiovizual kontent: ənənəvilik və müasirlik”, Naxçıvan Muxtar Respublikasının “Televiziya və Radio Verilişləri” QSC-nin sədri Sahil Tahirlinin “Naxçıvan mətbuatı tarixdən bu günə və müasir tendensiyalar”, “Technote” şirkətinin rəhbəri Fərid Pərdəşünasın “Süni intellekt jurnalistikanı necə dəyişir?” və “Aran” qəzetinin baş redaktoru Məhsəti Musanın “Bölgə mediasının fəaliyyətində yeni xüsusiyyətlər” mövzularında məruzələri dinlənilib.

***“Xalq qəzeti”***

# Baş Prokurorluq Milli Mətbuat Gününü qeyd etdi



**Azərbaycanda 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə əlaqədar həyata keçirilən silsilə tədbirlərin davamı, habelə Milli Mətbuat Günü münasibətilə iyulun 20-də Baş Prokurorluq tərəfindən təntənəli tədbir təşkil edilib.**



Baş prokuror Kamran Əliyev əsası 148 il əvvəl – 1875-ci il iyulun 22-də "Əkinçi" qəzetinin ilk nömrəsinin nəşri ilə qoyulan milli mətbuatımızın keçdiyi çətin və şərəfli yoldan bəhs edib.

Diqqətə çatdırılıb ki, milli mətbuatımızın sonrakı inkişafı Ulu öndərlə bağlıdır. Ümummilli liderin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı mediamızın inkişaf tarixində yeni mərhələ açıb. Baş prokuror bu gün ölkəmizdə müstəqil, güclü, dövlətçilik ənənələrinə bağlı medianın inkişafının prioritet vəzifələrdən biri olduğunu vurğulayıb.

Tədbir iştirakçıları Azərbaycan Dövlət Akademik Musiqili Teatrının təqdimatında ulu öndər Heydər Əliyevin 100 illik, peşəkar milli teatrımızın 150 illik yubileyi ilə əlaqədar "Sən elə bir zirvəsən!.." musiqili-tarixi essesini izləyib.

# Dövlət Sərhəd Xidməti jurnalistləri təbrik etdi



**22 İyul Milli Mətbuat Günü münasibətilə Dövlət Sərhəd Xidmətində tədbir keçirilib.**

Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev toplaşanları Milli Mətbuat Günü münasibətilə təbrik edib, Dövlət Sərhəd Xidmətinin kütləvi informasiya vasitələri ilə əlaqələrinin inkişafından məmnunluq ifadə edib, faydalı əməkdaşlığın bundan sonra da uğurla davam edəcəyinə əminlik bildirilib.

Sonda Dövlət Sərhəd Xidməti rəisinin əmrinə əsasən, mətbuat sahəsində əməkdaşlığa verdiyi töhfələrə görə bir qrup KİV və əməkdaşları medal və fəxri fərmanlarla təltif edilib.

Təltif olunanlar arasında “Xalq qəzeti” də var.

# Qərbi Azərbaycan İcmasında KİV nümayəndələri ilə görüş



**Milli Mətbuat Günü münasibətilə iyulun 20-də Qərbi Azərbaycan İcmasında media nümayəndələri ilə görüş keçirilib.**

Milli Məclisin deputatı, Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri Əziz Ələkbərli son altı ay ərzində media nümayəndələri ilə birlikdə Qərbi Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində həm ölkə daxilində, həm də beynəlxalq miqyasda xeyli işin görüldüyünü bildirib.

Sonda mətbuat nümayəndələrinə təşəkkürnamələr və xatirə hədiyyələri təqdim olunub.

***“Xalq qəzeti”***

Türkiyədən xoş xəbər

# “Kitabi Dədə Qorqud”un yeni nüsxəsi aşkar edilib

**Türkiyənin NTV telekanalının yaydığı məlumata görə, Bursa şəhərində bir antiq əşyalar mağazası sahibinin nadir əsər olduğunu bilmədən Muradiye Quran və Əlyazmaları Muzeyinə bağışladığı “Kitabi-Dədə Qorqud” dastanının nüsxəsi türkoloqların tədqiqat mənbəyi olub.**



Hədiyyəlik əsər Bursa Bələdiyyəsi tərəfindən bərpa olunub və onun surəti nəşr edilib. Bundan sonra türkoloqlar daha öncə Drezden və Vatikan nüsxələri məlum olan “Kitabi Dədə Qorqud” dastanının yeni nüsxəsi üzərində tədqiqata başlayıblar.

Əsərin orijinalını muzeyə bağışlayan tacir İbrahim Koca bildirib ki, kitabı ona Bursanın Fadıllı kəndindən ərəb dilini və Osmanlı türkcəsini bilən bir müəllim gətirib. Kitab kolleksiyaçısı olmadığını və bu səbəbdən onu muzeyə hədiyyə etdiyini söyləyən Koca əlavə edib ki, Bursa Universitetinin müəllimləri sonradan ona bu nüsxənin çox nadir və qiymətli olduğunu deyiblər.

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının kafedra müdiri, filologiya üzrə elmlər doktoru, “Kitabi Dədə Qorqud”un Vatikan nüsxəsinin tədqiqatçısı olan professor Tərlan Quliyev “Xalq qəzeti”nə açıqlamasında bildirdi ki, bu dastan türk xalqlarının mədəniyyətində çox əhəmiyyətli yer tutur:

– Dastanın elm aləminə məlum olan nüsxələri uzun zamandır ki, türk dünyasının ədəbiyyatşünasları tərəfindən araşdırılır. Elm aləminin ehtimalına görə, dastanın hələ tapılmamış nüsxələri də olmamış deyil. Çünki bu böyüklükdə abidənin cəmi iki nüsxədə bizim dövrümüzə gəlib çatması inandırıcı deyil. Fikrimi daha yaxşı izah etmək üçün, misal olaraq vurğulayım ki, Füzilinin divanının



Türkiyədə 68 nüsxəsi var.

“Kitabi Dədə Qorqud” dastanının yeni nüsxəsinin tapılması onu göstərir ki, vaxtilə, ən azı, bir neçə nüsxədə üzü köçürülüb. Yeni nüsxənin əldə edilməsi də biz alimlərin gumanını doğruldur. Deyilənə görə, Bursa şəhər bələdiyyəsi bu nüsxəni yenidən çap edib yayıb, amma hələ ki, bizə gəlib çatmayıb. Bu əsərin bizim üçün də əlçatan olmasını arzu edirik. Araşdırıb, aydınlaşdırardıq ki, onun Vatikan və Drezden nüsxələri ilə oxşar və fərqli cəhətləri nələrdir? Ümumiyyətlə, düşünürük ki, yeni tapılan bu əlyazmanın “Dədə Qorqud” dastanına nə qədər adiyyatı var? Müəyyənləşdirmək lazımdır ki, yeni tapıntı əsl dastandırmı, yoxsa əvvəlki nüsxələrin törəməsidir?

Məlumata görə, yeni nüsxə 238 səhifəlikdir və onların hər birində başlıqları qırmızı mürəkkəblə yazılmış 13 sətir var. Bu, onu deməyə əsas verir ki, bu törəmə deyil, bəlkə də, dastanın yeni bir qoludur. Bir neçə il bundan öncə dastanın Türkmən səhra nüsxəsi də ortaya çıxmışdı. Hələ ki bu variantın da üzərində araşdırmalar aparılır. Dəqiqləşdirməyə çalışırıq ki, yeni bir qoldur, yoxsa Vatikan və Drezden nüsxələrinin surətidir.

Türkoloq alim Bəşir Ayvazoğlu isə jurnalistlərə müsahibəsində bildirib ki, üzə çıxan yeni nüsxə türk mədəniyyətinin tədqiqi baxımından çox qiymətlidir. “Qədim türk dilində yazıldığı üçün əsərdə oxunma problemi olan kəlmələr də var. Türkoloqlar və dilçi alimlər bu kitabın üzərində illər boyu çalışacaqlar. Onlar bu nüsxənin




əvvəlkilərdən fərqini də aşkar edəcəklər. Düşünürəm ki, “Kitabi Dədə Qorqud” dastanının daha çox nüsxəsinin olması türk mədəniyyəti üçün bir zənginlikdir”.

Alim bildirib ki, bu nüsxə XVII əsrdə tərtib edilib və qədim türk dilinin tədqiqi baxımından əhəmiyyətlidir. O, kitabın surətinin çap edilərək kitabxanalara paylanması və internetdə yerləşdirilməsinə görə Bursa şəhər bələdiyyəsinə təşəkkürünü bildirib.

***Əli NƏCƏFXANLI, “Xalq qəzeti”***

# Şuşada Qazançı kilsəsi

## Abidələrimizə sahib çıxmağımız heç kəsi narahat etməməlidir

**Tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olması Şuşaya xüsusi qayğı və həssaslıqla yanaşılmasını zəruri edir. Bu səbəbdən aparılan bərpa və quruculuq işləri Qazançı kilsəsində də şəhərin orijinal memarlıq üslubuna uyğun olaraq aparılır. Abidənin tarixi görkəmi, mədəni ruhu geri qaytarılır. Nəticədə Azərbaycan dövlətinin öz mədəni irsinə, o cümlədən xristian irsinə diqqəti bir daha nümayiş etdirilir. Bu, həm də, tariximizə, mədəniyyətimizə, abidələrimizə sahib çıxmağımızın örnək nümunəsi, tolerantlığımızın göstəricisidir.**

Amma Qazançı kilsəsinin bərpa prosesindən narahat olanlar da var. İşğalçı Ermənistan bizə qarşı şər-böhtan atır, cəfəng iddialar irəli sürür. Dünyanın bütün müvafiq beynəlxalq təşkilatlarına müraciət edərək “erməni” kilsəsinin azərbaycanlılar tərəfindən “dağıdılması”, kilsənin gümbəzinin məhv edilməsi haqqında iddialar səsləndirir, dezinformasiyalar yayırlar. Məqsəd isə Azərbaycanı etmədiyi bir işdə suçlamaq, dünya dövlətləri arasında gözdən salmaqdır.

Bəs, bu kilsənin ermənilərə nə aidiyyatı var? Şuşada xristian kilsəsi Qarabağ xanlığının Çar Rusiyası tərəfindən işğalından sonra inşa olunub. Rusların hərbi hissələrinin Qarabağda yerləşməsi, onların da özlərinə belə abidə tikmələri üçün əsas olub.

Əvvəllər rus əsgərləri ibadətlərini və bəzi dini ayinlərini bu məqsəd üçün nəzərdə tutulan ictimai binada yerinə yetiriblər. 1858-ci ildə isə rus komandanlığının göstərişi ilə zəng qülləsi, 1868-1887-ci illərdə kilsə tikilib. Təbii ki, kilsə tikintisində müsəlman əhali işləməyib, şəhərdə isə xristianlar yaşamırdı. Deməli, o dövrdə Şuşada nə erməni və nə də digər xristian xalqları yaşayıb. Məhz bu səbəbdən də kilsənin tikintisində işləmək üçün indiki Naxçıvan Muxtar Respublikası Culfa rayonunun Qazançı kəndindən Şuşaya erməni əhali köçürülüb. Oradan gələn ermənilər kilsənin tikintisindən sonra Şuşada qalaraq, orada məskunlaşıblar. Yerli əhali Culfadan gələn erməniləri “qazançılar” adlandırıblar. Elə bu səbəbdən də kilsənin adına da Qazançı kilsəsi deyiblər.

...Rusiyada 1917-ci il inqilabından sonra, rus hərbçiləri Şuşadan getdilər. Bundan sonra şəhərdə rus provoslav kilsəsində ibadət edən qalmadı. 1920-ci ildə isə Azərbaycanı işğal edən bolşeviklər, məscidlərdə və kilsələrdə ibadəti qadağan etdi. Qadağalar SSRİ-nin süqutuna qədər qüvvədə qaldı. Bütün bu dövr ərzində nə Şuşada, nə də ümumilikdə, Qarabağda kilsə fəaliyyətinə icazə verilmədi.

Ermənistan silahlı qüvvələri Şuşanı işğal etdikdən sonra, bu kilsə də erməniləşdirilməyə məruz qaldı. 1995-2000-ci illərdə memarlıq quruluşu dəyişdirilərək, erməni Qriqorian kilsəsinə çevrildi.

Beləliklə, yuxarıda qeyd edilənlərdən aydın olur ki, Qazançı kilsəsi erməni mədəni irsinə aid deyil. Baxmayaraq ki, bu gün də haylar onu “erməni kilsəsi” kimi qələmə verir və ziyarətə gəlməyə can atırlar. İkincisi, kilsənin üzərindən asılan zəng və Şuşadakı rus komandanlığının



tələbi ilə Rusiyanın Tula şəhərində hazırlanaraq, hərbçilərin köməyi ilə Şuşaya gətirilib. Əgər Şuşada erməni katolikosluğu mövcud idisə, niyə kilsə zəngini ermənilər hazırlamırdı, sifarişini haylar vermirdilər və Tuladan gətirilirdi? Üçüncüsü, Qazançının erməni kilsə memarlığına heç bir adiyyatı yoxdur və rus provoslav kilsə memarlığı ilə tikilib. O zaman belə bir sual yaranır, əgər kilsə ermənilərə aid idisə, bəs niyə Qriqorian memarlığı üslubunda tikilməyib.

Qeyd edək ki, Qazançı kilsəsi Şuşa şəhərinin kənarında, hazırkı yuxarı hissəsində yerləşir. Şəhər işğaldan azad edildikdən sonra Azərbaycan hakimiyyəti bu kilsə də daxil olmaqla, dağıdılmış obyektlərin bərpasına başlayıb. Çünki şəhərin hər bir abidəsi, binası, daşı belə bizim üçün dəyərlidir.

***Pünhan ƏFƏNDİYEV, “Xalq qəzeti”***

# Mədəniyyət xəbərləri



**Bakıdakı Xətai Sənət Mərkəzində Xalq rəssamı Əşrəf Heybətovun “Xətai əfsanəsi” adlı pannosunun təqdimatı və əsərlərinin sergisi açılıb.**

İyulun 22-dək davam edəcək sergi böyük şair, Azərbaycan Səfəvilər dövlətinin qurucusu Şah İsmayıl Xətainin (1487-1524) doğum gününə (17 iyul) həsr olunub. Çıxış edənlər rəssamın əsərlərinin ideya-sənətkarlıq xüsusiyyətlərindən söz açıb, sergi münasibətilə təbriklərini çatdırıblar.

Sergidə Xətainin pannosu və rəssamın 20-dək digər əsəri yer alıb. Sənətkarın “Xətai əfsanəsi” pannosu, xüsusilə, tamaşaçıların diqqətini cəlb edib.

***

**Yaxşı təhsil xoşbəxt gələcək deməkdir. Lakin dünya ölkələrinin heç də hamısının təhsil sistemi yüksək səviyyədə deyil. Elə ölkələr var ki, orada təhsil almaq və yaşamaq milyonlarla insanın arzusudur.**



İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Beynəlxalq Tələbələrin Qiymətləndirilməsi Proqramı (PISA) bu mövzuda cari ilin hesabatını hazırlayıb.

Təhsil sisteminin mükəmməlliyinə görə ilk 5-likdə yer alan ölkələr aşağıdakılardır:

Finlandiya, Cənubi Koreya, Niderland, Danimarka və İngiltərə.

***

**Lənkəran Dövlət Dram Teatrı mövsümü 3 yeni tamaşa ilə başa vurur. Bunlar “Yaşayan ölü” (müəllif Könül Məmmədova, rejissor Anar Babalı), “Müqəssir” (müəllif Əbdürrəhim bəy Haqverdiyev, rejissor Abdulla Elşadlı) və “Cəmilə” (müəllif Çingiz Aytmatov, rejissor İmran Əli Qurban) tamaşalarıdır.**

Teatr cari mövsümünü səfərdə başa vurub. “Prokuror” tamaşası lerikli teatrsevərlərə təqdim edilib. “Uçan səhnə” adlı layihə çərçivəsində isə Lənkəran rayonunun Bəliton kəndində truppanın çıxışı maraqla qarşılanıb. Kollektiv Məmmədhüseyn Əliyevin “Prokuror”



(quruluşçu rejissorlar Oruc Qurbanov və Anar Babalı) tamaşası ilə Biləsuvar rayonunda da səfərdə olub.

***Ə.DOSTƏLİ, “Xalq qəzeti”***

BEYNƏLXALQ HƏYAT

## Rusiya Ukrayna limanlarını blokadaya almağa çalışır




**Rusiya taxıl razılaşmasında iştirakını yeniləməkdən imtina etdi. Bu, Ukraynadan taxıl ixrac edən gəmilərin təhlükəsiz keçidini təmin edən müqavilənı faktiki olaraq ləğv etdi. Bu barədə Britaniya Müdafiə Nazirliyi öz kəşfiyyatına istinadən yazır. İndi Rusiya Ukrayna limanlarından bütün ticarət gəmilərinin hərəkətini blokadaya almaq niyyətindədir, lakin bu, onun öz donanmasına da təhlükə yaradacaq.**

Britaniya kəşfiyyatı qeyd edir ki, Rusiya Federasiyası yəqin ki, bir müddət əvvəl bu sazişin onun maraqlarına cavab vermədiyinə inanaraq, “Taxıl sazişi”ndən çıxmaq qərarına gəlib. Bununla belə, ruslar öz qərarlarını dezinformasiya ilə pərdələyirlər: Guya “Ukrayna mi-naları” mülki gəmilər üçün təhlükə yaradır və Ukrayna taxıl dəhlizindən hərbi məqsədlər üçün istifadə edir. Üstəlik, iyulun 19-da Rusiya Müdafiə Nazirliyi Qara dənizdən keçərək Ukrayna limanlarına üzən bütün gəmiləri potensial hərbi hədəflər hesab edir. Lakin Rusiya həmişə olduğu kimi, öz iddiasına heç bir sübut təqdim etməyib.

Ağ evin Milli Təhlükəsizlik Şurasının sözçüsü Adam Hodge isə bildirib ki, Rusiya bu bəhanələri gətirərək Qara dənizdə mülki gəmilərə hücum edə və buna görə Ukraynanı günahlandıra bilər: “Biz hesab edirik ki, bu, Qara dənizdə mülki gəmilərə qarşı istənilən hücuma haqq qazandırmaq və bu hücumlarda Ukraynanı günahlandırmaq üçün koordinasiya olunmuş cəhddir”.

Bunlar göstərir ki, Rusiya Qara Dəniz Donanması, çox güman ki, indi taxıl ticarətinin pozulmasında daha fəal rol oynayacaq. Amma Ukrayna tərəfi də hadisələrin sakit iştirakçısı olmayacaq. Qara Dəniz Donanmasının blokada əməliyyatları Ukraynanın pilotsuz süstü vasitələri və sahil müdafiəsi qanadlı raketləri ilə təhdid ediləcək. ABŞ-ın Ukraynaya 1,3 milyard dollarlıq yeni hərbi yardım paketi də bunu deməyə əsas verir. Bu paketə dörd NASAMS hava hücumundan müdafiə sistemi daxildir. Paketə NASAMS döyüş sursatları, “Phoenix Ghost” kamikadze dronları, “Switchblade” sursatları, minalardan təmizləmə və dron əleyhinə sistemlər daxildir.

ABŞ hərbi yardımla yanaşı, Kiyevə Ukrayna taxılının dünya bazarlarına çatdırılmasında kömək də göstərəcək. Bu barədə Ağ evin mətbuat katibi Karine Jan-Pyer deyib: “Biz taxılın daha çox ehtiyac duyulan bazarlara çatdırmaq üçün Ukraynanın səylərini dəstəkləməyə davam edəcəyik. Kiyevə daha 1,3 milyard dollarlıq hərbi yardım paketinin ayrılması bunu asanlaşdırmaq üçün nəzərdə tutulub”.

Ağ evin sözçüsü əlavə edib: “Biz bacardığımız qədər kömək etmək üçün addımlar atırıq. Ukraynaya kənd təsərrüfatı sektorunu dəstəkləmək üçün daha 250 milyon dollar ayrılacaq”.

Bu arada Avropa İttifaqı ölkələrinin xarici işlər nazirlərinin görüşünə gələn Aİ-nin xarici siyasət idarəsinin rəhbəri Jozep Borrel deyib: “Qara dəniz təşəbbüsündən əlavə, Ukraynadan taxıl tədarükü üçün çay və quru marşrutları da mövcuddur. Bu, bizə böyük miqdarda taxıl ixrac etməyə imkan verir. Dəniz yolu bağlanarsa, həmin marşrutlarla idxalı artırmalıyıq. Bu məsələdə Ukraynanın qonşuları böyük səy göstərməli, sərhədləri açmalı və nəqliyyat daşımalarını asanlaşdırmalıdır”.

Xatırladaq ki, Rusiya Ukraynanın Odessada yerləşən taxıl limanlarını raket və pilotsuz uçuş aparatlarından atəşə tutur və bu da kənd təsərrüfatı infrastrukturunun dağılmasına, 60 min ton taxılın məhvinə səbəb olub. Bu hadisələr isə dünya bazarında taxılın bahalaşmasıua təsir edir.

## Avstraliya Rusiyanın 35 təşkilatına sanksiya tətbiq edib

**Avstraliya hökuməti müdafiə, texnologiya və enerji sektorunda fəaliyyət göstərən Rusiyanın 35 təşkilatına, 10 Rusiya və Belarus vətəndaşına qarşı yeni sanksiyalar tətbiq edib. Bu barədə xarici işlər naziri Penni Vonq bildirib. “Beynəlxalq tərəfdaşlarımızla sıx koordinasiya ilə alınan bu qərar Rusiyanın Ukraynaya təcavüzünü birbaşa və ya dolayısı ilə dəstəkləyən vətəndaşlara maksimum təzyiq göstərməlidir”, – deyən Penni Vonq Rusiya üçün böyük iqtisadi və strateji əhəmiyyətə malik müəssisələrin də sanksiyalara məruz qaldığını vurğulayıb.**

Xarici siyasət idarəsinin rəhbərinin sözlərinə görə, yeni sanksiya siyahısına Rusiya silahlı qüvvələrini qabaqcıl texnologiyalar, elektronika və avadanlıqlarla təmin edən şirkətlər, nüvə enerjisi və Arktika resurslarının çıxarılması ilə məşğul olan təşkilatlar daxil edilib. Bundan əlavə, Rusiyanın bir neçə rəsmi şəxsləri, eləcə də “Kalaşnikov” konserninin baş direktoru ilə bağlı maliyyə məhdudiyyətləri tətbiq olunub.

Qeyd edək ki, 2014-cü ilin martından Avstraliya hökuməti Rusiya əleyhinə 25-dən çox məhdudiyyət elan edib.

## Bağdaddakı İsveç səfirliyinə hücum

**Stokholm polisi “Quran” nüsxəsinin yandırılması ilə bağlı aksiyaya icazə verib. Bundan narazı olan nümayişçilər Bağdaddakı İsveç səfirliyinə basqın edib. Bir qrup etirazçı Bağdadın xüsusi mühafizə olunan “yaşıl zona”sında krallığın diplomatik nümayəndəliyinin ərazisinə daxil olaraq qapını sındırmağa cəhd edib, diplomatik nümayəndəliyin binasını yandırıb. İsveç Xarici İşlər Nazirliyi bildirib ki, diplomatik missiyanın əməkdaşlarının həyatı üçün təhlükə yoxdur. İraq hakimiyyəti isə hadisəni pisləyib.**

Səfirlik binasına yaxınlaşan etirazçılar şiə lideri Müqtəda əs-Sədrin təsviri olan bayraqlar və plakatlar qaldırıb. Polis nümayişçiləri dağıtmaq üçün su şırnaqlarından istifadə edib. Bu hadisədən sonra İsveçin Bağdaddakı səfirliyi fəaliyyətini dayandırıb.

***P. ƏFƏNDİ, “Xalq qəzeti”***



Sosial sfera yenilikləri

# Laçında məşğulluq layihələri

**Böyük Qayıdış proqramı üzrə doğma yurd yerlərinə – Laçın şəhərinə köçürülən sakinlərin də aktiv məşğulluq proqramları ilə əhatə olunması üçün işlərə başlanıb. Dövlət Məşğulluq Agentliyi ilk mərhələdə həmin sakinlərlə görüşlər keçirir. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən bildiriblər.**



Aldığımız məlumata görə, artıq 38 ailə ilə belə görüşlər keçirilərək, qiymətləndirmə aparılıb, onların hansı məşğulluq proqramına cəlb olunacaqları müəyyən edilib. Bu əsasda növbəti mərhələdə Laçın sakinlərinin münasib vakansiyalar üzrə işlə təminatı, özünüməşğulluq proqramına cəlbi, eləcə də sakinlərdən bir qisminin yeni peşələrə yiyələnmələri məqsədilə peşə hazırlığı kurslarının təşkili nəzərdə tutulub.

Laçında fəaliyyət göstərən işəgötürənlərlə birgə müxtəlif dəstək proqramlarının həyata keçirilməsi də planlaşdırılır.

### Sahibkarlara biznes fürsəti

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Dünya Bankının maliyyə dəstəyi ilə icra olunan "Məşğulluğa Dəstək Layihəsi" iştirakçılarına biznes mükafatlarının təqdim edilməsini nəzərdə tutan yeni layihəyə start verir.

Layihə 2025-ci ilin sonuna qədər davam edəcək. Elektron müraciət formasını doldurmuş və qalib gəlmiş 280 sahibkar biznes mükafatları ilə təmin ediləcək.

Qeyd edək ki, layihə regionlar üzrə mərhələli şəkildə həyata keçiriləcək. İlkin mərhələdə Gəncə–Daşkəsən iqtisadi rayonu üzrə "Məşğulluğa Dəstək Layihəsi"nə cəlb olunmuş və 1 ildən artıq fəaliyyəti olan benefisiarlar müraciət edə bilərlər. Həmin region üzrə qalib gəlmiş 8 sahibkarın biznes mükafatı ilə təmin edilməsi nəzərdə tutulur.

Layihəyə qeydiyyata alınmış vergi ödəyicisi olan, özünüməşğulluq proqramı çərçivəsində birinci ilin biznes planını uğurla tamamlamış, son 12 ay ərzində bütün hüquqi və vergi tələblərinə tam şəkildə riayət etmiş və cəriməsi olmayan, fəaliyyətdə olan biznesi inkişaf etdirməsi üçün əlavə əmlaka ehtiyac duyan, biznesin inkişafı üçün biznes planı təmin edə biləcək sahibkarlar, həmçinin "Məşğulluğa Dəstək Layihəsi" çərçivəsində 2021-ci il dekabr ayından başlayaraq, istehsal və xidmət sahələri üzrə əmlakla təmin olunmuş benefisiarlar müraciət edə bilərlər.

Gəncə – Daşkəsən iqtisadi rayonu üzrə bu tələblərə cavab verən sahibkarlar 2023-cü ilin 26 iyul tarixinədək https://dma.gov.az/mesgulluga-destek-layihesi-heveslendirme-ve-biznes-mukafatlarina-muraciet-formasi linkinə daxil olaraq layihəyə müraciət edə bilərlər.

### 70 nəfər kiçik bizneslə məşğuldur

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Mərkəzi Bank və Banklar Assosiasiyasının birgə icra etdiyi "Özünüməşğulluğa dəstək–2023" layihəsi üzrə işsiz şəxslər üçün kiçik bizneslərin yaradılmasına başlanıb.

Layihə çərçivəsində artıq 70 işsiz şəxsin kiçik biznesləri yaradılıb. Onların əksər hissəsi şəhid ailəsi üzvləri, müharibə iştirakçıları və əlilliyi olan şəxslər, digər həssas qruplardan olanlardır.

Özünüməşğulluq proqramının genişləndirilməsində mühüm rol oynayan "Özünüməşğulluğa dəstək– 2023" layihəsinə 23 bank qoşulub.

2020–2021-ci illərdə həssas qruplardan ibarət 1500-dək şəxs üçün kiçik bizneslərin yaradıldığı layihənin bu il daha 300 işsiz şəxsi əhatə etməsi nəzərdə tutulub.

*Zərifə HÜSEYNOVA, "Xalq qəzeti"*

İdman tarixində ilk dəfə

# Paris Olimpiadasının açılışı və bağlanışı Sena çayı üzərində keçiriləcək

## Bu barədə missiya rəhbərlərinin seminarında bildirilib



**Fransanın paytaxtı Parisdə XXXIII Yay Olimpiya Oyunları missiya rəhbərlərinin seminarı keçirilib. Tədbirdə ölkəmizi Azərbaycan nümayəndə heyətinin şef de missionu, Gənclər və İdman Nazirliyi idman şöbəsinin müdiri Elnur Məmmədov və şef de missionun müavini, Azərbaycan Milli Olimpiya Komitəsi Xarici Əlaqələr şöbəsinin müdiri Anar Bağırov təmsil ediblər.**

Seminarda Paris Yay Olimpiya Oyunlarına hazırlıq prosesi müzakirə edilib, Olimpiadanın açılış və bağlanış mərasimləri, tibb, nəqliyyat, yarışların keçiriləcəyi məkanlar, atletlər kəndi, akkreditasiya, atletlərin qeydiyyatı, yerləşdirilməsi və digər məsələlərlə bağlı ətraflı məlumat verilib, fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, gələn il 26 iyul – 11 avqust tarixlərində Fransanın paytaxtı Paris şəhərində keçiriləcək XXXIII Yay Olimpiya Oyunlarının açılış və bağlanış mərasimi unikallığı ilə fərqlənəcək. Belə ki, Olimpadalar tarixində ilk dəfə olaraq çay üzərində təşkil ediləcək paradda hər bir ölkənin idmançıları onlar üçün ayrılmış gəmi ilə Sena çayı üzərindən keçəcək.

*L.QURBANOVA, "Xalq qəzeti"*


# "Azərsu" Açıq Səhmdar Cəmiyyəti

## "Pirşağı–Bilgəh" şərq kanalizasiya kollektorunun tikintisi işlərinin satın alınması üçün

## AÇIQ TENDER ELAN EDİR

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları oxşar təcrübəyə, lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti 67 nömrəli ünvanda yerləşən "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin satınalmaların təşkili və müqavilələrin idarə olunması şöbəsindən (əlaqələndirici şəxs: Abışev Murad Çingiz oğlundan, telefon: + 99 412 431 47 67/87 – daxili 1087 E-mail: murad.abishev@azersu.az və Musayev Məmmədyar Ağa oğlundan, telefon: + 99 412 431 47 67 – daxili 2288, E-mail: mammadyar.musayev@azersu.az) ala bilərlər.

İşlərin qısa təsviri:

Dəmir-beton kanalizasiya kollektorunun tikintisi, nasos stansiyasının tikintisi və digər əlaqədar işlər.

Tenderdə iştirak haqqı: 500,00 (beş yüz) manatdır.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Təşkilat - "Azərsu" Açıq Səhmdar Cəmiyyəti

VÖEN - 9900001751

Bank - "Kapitalbank" ASC-nin 1 saylı Nəsimi filialı

Kod -200112

VÖEN - 9900003611

Yerli valyutada hesab nömrəsi
AZ65AIIB33070019441100216111

Xarici valyutada hesab nömrəsi
AZ55AIIB33170018401100216111

M/h: AZ37NABZ01350100000000001944

SWIFT AIIBAZ2X

Tender iştirakçıları tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün ərizə;
- iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 65 bank günü ərzində qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);
- tender iştirakçısının tam adı, nizamnaməsi (hüquqi şəxslər üçün) və qeydiyyatdan keçdiyi rekvizitləri;
- malgöndərənin (podratçının) işin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə konkret subpodratçının adı göstərilməklə məlumatlar (əlavə №19);
- malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış;
- iddiaçının satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması (şəxsin səlahiyyətli olması barədə əmr təqdim edilməlidir);
- öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə arayış;
- müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə arayış (Ədliyyə Nazirliyindən alınmış müvafiq arayış);
- satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə arayış;
- Azərbaycan Respublikasının dövlət standartlarına uyğun olaraq I və II məsuliyyət səviyyəli bina və qurğuların tikinti-quraşdırma işlərinin yerinə yetirilməsi üçün verilmiş xüsusi razılıq (lisenziya) və onun əsasında həyata keçirilməsinə icazə verilən işlərin siyahısı;
- malgöndərənin (podratçının) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti (vergi orqanının rəsmi blankında və ya elektron sənədin notarial qaydada təsdiq edilmiş surəti təqdim edilməlidir);
- mühasibat balansları, mənfəət və zərər haqqında hesabat;
- kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa);
- satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlılığının olması (son beş il (1 yanvar 2018-ci il 31 dekabr 2022-ci il) ərzində ümumi məbləği 10 milyon manatdan az olmayan, oxşar işi əhatə edən (oxşarlıq layihə və texniki spesifikasiyalarda təsvir edilən fiziki ölçüyə, mürəkkəbliyə, metodlara, texnoloqiyaya və digər xüsusiyyətlərə əsaslanmalıdır) baş podratçı kimi ən azı iki sifarişi qənaətbəxş şəkildə icra etməsi haqda məlumat və təsdiqedici sənədlər, son beş il (1 yanvar 2018-ci il 31 dekabr 2022-ci il) ərzində ən azı 8 milyon manatdan dövriyyə tələb olunur) və TMV-nin 1.6-cı bəndində tələb olunan digər sənədlər. Tenderdə iştirak üçün iki və ya daha artıq tərəfdaş şirkətdən ibarət birgə müəssisə yaratdıqda, TMV-nin 1-ci və 2-ci bəndlərində tələb olunan sənədlər ən azı bir müəssisə tərəfindən təqdim edilməlidir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (1 əsli və 1 surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinə uyğun keçiriləcəkdir.

Tender iştirakçıları tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 24 avqust 2023-cü il saat 16.00-a, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 1 sentyabr 2023-cü il saat 16.00-a qədər Bakı şəhəri, Moskva prospekti 67 nömrəli ünvanda yerləşən "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin satınalmaların təşkili və müqavilələrin idarə olunması şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Tender iştirakçılarının təklifləri Bakı şəhəri, Moskva prospekti 67 nömrəli ünvanda yerləşən "Azərsu" Açıq Səhmdar Cəmiyyətində 4 sentyabr 2023-cü il saat 16:00-da açılacaqdır.

Tender iştirakçılarının səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər.

*Tender komissiyası*



# "Azərsu" Açıq Səhmdar Cəmiyyəti

## Ceyranbatan – Maştağa – Nardaran magistral su kəmərinin bir hissəsinin və bir ədəd su anbarının tikintisi işlərinin satın alınması üçün

## AÇIQ TENDER ELAN EDİR

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları oxşar təcrübəyə, lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti 67 nömrəli ünvanda yerləşən "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin satınalmaların təşkili və müqavilələrin idarə olunması şöbəsindən (əlaqələndirici şəxs: Abışev Murad Çingiz oğlundan, telefon: + 99 412 431 47 67/87 – daxili 1087 E-mail: murad.abishev@azersu.az və Musayev Məmmədyar Ağa oğlundan, telefon: + 99 412 431 47 67 – daxili 2288, E-mail: mammadyar.musayev@azersu.az) ala bilərlər.

İşlərin qısa təsviri: magistral su kəmərinin bir hissəsinin və bir ədəd su anbarının tikintisi və digər əlaqədar işlər.

Tenderdə iştirak haqqı: 500,00 (beş yüz) manatdır.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Təşkilat - "Azərsu" Açıq Səhmdar Cəmiyyəti

VÖEN - 9900001751

Bank - "Kapitalbank" ASC-nin 1 saylı Nəsimi filialı

Kod - 200112

VÖEN - 9900003611

Yerli valyutada hesab nömrəsi
AZ65AIIB33070019441100216111

Xarici valyutada hesab nömrəsi
AZ55AIIB33170018401100216111

M/h: AZ37NABZ01350100000000001944

SWIFT AIIBAZ2X

Tender iştirakçıları tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün ərizə;
- iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 65 bank günü ərzində qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);
- tender iştirakçısının tam adı, nizamnaməsi (hüquqi şəxslər üçün) və qeydiyyatdan keçdiyi rekvizitləri;
- malgöndərənin (podratçının) işin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə konkret subpodratçının adı göstərilməklə məlumatlar (əlavə №19);
- malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış;
- iddiaçının satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması (şəxsin səlahiyyətli olması barədə əmr təqdim edilməlidir);
- öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə arayış;
- müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə arayış (Ədliyyə Nazirliyindən alınmış müvafiq arayış);
- satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə arayış;
- Azərbaycan Respublikasının dövlət standartlarına uyğun olaraq I və II məsuliyyət səviyyəli bina və qurğuların tikinti-quraşdırma işlərinin yerinə yetirilməsi üçün verilmiş xüsusi razılıq (lisenziya) və onun əsasında həyata keçirilməsinə icazə verilən işlərin siyahısı;
- malgöndərənin (podratçının) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti (vergi orqanının rəsmi blankında və ya elektron sənədin notarial qaydada təsdiq edilmiş surəti təqdim edilməlidir);
- mühasibat balansları, mənfəət və zərər haqqında hesabat;
- kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa);
- satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlılığının olması (son beş il (1 yanvar 2018-ci il 31 dekabr 2022-ci il) ərzində ümumi məbləği 15 milyon manatdan az olmayan, oxşar işi əhatə edən (oxşarlıq layihə və texniki spesifikasiyalarda təsvir edilən fiziki ölçüyə, mürəkkəbliyə, metodlara, texnoloqiyaya və digər xüsusiyyətlərə əsaslanmalıdır) baş podratçı kimi ən azı iki sifarişi qənaətbəxş şəkildə icra etməsi haqda məlumat və təsdiqedici sənədlər, son beş il (1 yanvar 2018-ci il 31 dekabr 2022-ci il) ərzində ən azı 10 milyon manatdan dövriyyə tələb olunur) və TMV-nin 1.6-cı bəndində tələb olunan digər sənədlər. Tenderdə iştirak üçün iki və ya daha artıq tərəfdaş şirkətdən ibarət birgə müəssisə yaratdıqda, TMV-nin 1-ci və 2-ci bəndlərində tələb olunan sənədlər ən azı bir müəssisə tərəfindən təqdim edilməlidir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (1 əsli və 1 surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının qanununun tələblərinə uyğun keçiriləcəkdir.

Tender iştirakçıları tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 24 avqust 2023-cü il saat 16.00-a, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 1 sentyabr 2023-cü il saat 16.00-a qədər Bakı şəhəri, Moskva prospekti 67 nömrəli ünvanda yerləşən "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin satınalmaların təşkili və müqavilələrin idarə olunması şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Tender iştirakçılarının təklifləri Bakı şəhəri, Moskva prospekti 67 nömrəli ünvanda yerləşən "Azərsu" Açıq Səhmdar Cəmiyyətində 4 sentyabr 2023-cü il saat 16:00-da açılacaqdır.

Tender iştirakçılarının səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər.

*Tender komissiyası*

# Azərbaycan Universiadada geniş heyətlə təmsil olunacaq

**Dünyanın kütləvi və multiidman tədbirlərindən biri olan Ümumdünya Yay Universiadasına sayılı günlər qalır. Dünən Çinin Çenqdu şəhərində keçiriləcək XXXI Ümumdünya Yay Universiadasına Azərbaycan nümayəndə heyətinin hazırlığı ilə bağlı Gənclər və İdman Nazirliyində görüş keçirilib.**

Tədbirdə nazirliyin idman şöbəsinin müdir müavini, nümayəndə heyətinin rəhbəri Nicat Həsənov yarışların keçiriləcəyi məkanlar, görülən işlər, həmçinin akkreditasiya, tibb, nəqliyyat, idmançıların qeydiyyatı, yerləşdirilməsi və digər məsələlərdən danışıb. O deyib ki, XXXI Ümumdünya Yay Universiadasında ölkəmizi 88 idmançı təmsil edəcək. Ümumilikdə isə 134 nəfərlik heyət Çinə yollanacaq: "Azərbaycan universiadalar tarixində ilk dəfə ən böyük heyətlə təmsil olunacaq. İyulun 28-də start götürəcək yarış avqustun 8-dək davam edəcək. Komandamız avqustun 9-da Vətənə qayıdacaq".

Qeyd edilib ki, bu nüfuzlu yarışda Azərbaycan komandasının bayraqdarı kişilərdə atlet Nazim Babayev, qadınlarda isə cüdoçumuz Gültac Məmmədəliyeva olacaq. Bu il yarışa 100-dən çox ölkə qeydiyyatdan keçib. Bəzi idman növü üzrə idmançılarımız təlim-məşq toplanışından sonra Çinə yollanacaqlar. Nicat Həsənov komandamızdan uğurlu nəticə gözlədiyini də söyləyib. O bildirib ki, bəzi idman növləri üzrə yığmalar birbaşa təlim-məşq toplanışlarından sonda turnirə yollanacaqlar.



"Gənclik" Tələbə İdman Cəmiyyətinin sədri Tofiq Xanəliyev "Xalq qəzeti"nə müsahibəsində komandamızın yarışlarda 1992-ci ildən iştirak etdiyini bildirdi: "Azərbaycan idmançıları 15-ci dəfədir ki, bu yarışlarda iştirak edir. Universiada, ümumilikdə, 18 idman növü üzrə keçirilsə də, təmsilçilərimiz onlardan 16-da gücünü sınayacaq. İndiyədək idmançılarımız maksimum 10 növ üzrə yarışlarda mübarizə aparıb. Bu, komandamız üçün rekord hesab oluna bilər".

T.Xanəliyev deyib ki, Ümumdünya Yay Universiadasından əvvəl tələbələrimizin iştirakı ilə Respublika Universiadası keçirilir. Bu yarışın nəticələrinə görə, ən güclü idmançılar müəyyənləşdirilir. İlk dəfə voleybol və basketbol üzrə kişilərdən ibarət komandalarımız da universiadada iştirak edəcəklər.

"Tələbə idmançılarımız yarışa yaxşı hazırlaşıblar. Cüdo, taekvondo, uşu, gimnastika, atletika və digər idman növlərində atletlərimizdən medal gözləyirik. Bu dəfə komandamız da çox geniş heyətlə təmsil olunur. Ümid edirik ki, idmançılarımız öz güclərindən maksimum istifadə edib, Vətənə yaxşı nəticələrlə dönəcəklər", – deyə o, əlavə etdi.

Azərbaycan idmançıları ötən Yay Universiadalarında uğurla çıxış ediblər. Analoji yarışlarda komandamız medal sayında fərqlənməyi bacarıb. İtaliyanın Neapol şəhərindəki XXX Ümumdünya Yay Universiadasında komandamız 7 medal qazanıb. Bu nəticə ilə Azərbaycan 165 ölkə arasında 18-ci yeri tutub.

Ümid edirik ki, atletlərimiz nəticələrini daha da yaxşılaşdırıb, Vətənə qələbə ilə dönəcəklər!

***Leyla QURBANOVA,***
***"Xalq qəzeti"***

## "Ekol Mühəndislik Xidmətləri" QSC-nin 2022-ci il dekabrın 31-nə

Beynəlxalq maliyyə hesabatı standartlarına uyğun konsolidasiya edilmiş maliyyə hesabatları və müstəqil auditorun hesabatı

**manatla**

| AKTİVLƏR | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| **Uzunmüddətli aktivlər** | | |
| Əsas vəsaitlər və qeyri-maddi aktivlər | 18,597 | 19,511 |
| İstifadə hüquqlu aktivlər | 4,768 | 7,629 |
| Birgə müəssisədəki investisiya | 733 | 1,612 |
| Təxirə salınmış mənfəət vergisi aktivləri | 364 | - |
| **Cəmi uzunmüddətli aktivlər** | **24,462** | **28,752** |
| **Qısamüddətli aktivlər** | | |
| Mal-material ehtiyatları | 4,186 | 3,766 |
| Ticarət və digər debitor borclar | 14,404 | 11,566 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 181 | 2,967 |
| Cari mənfəət vergisi üzrə avans ödənişləri | 448 | - |
| **Cəmi qısamüddətli aktivlər** | **19,219** | **18,299** |
| **CƏMİ AKTİVLƏR** | **43,681** | **47,051** |
| **KAPİTAL** | | |
| Nizamnamə kapitalı | 4,072 | 4,072 |
| Bölüşdürülməmiş mənfəət | 17,439 | 15,583 |
| **CƏMİ KAPİTAL** | **21,511** | **19,655** |
| **ÖHDƏLİKLƏR** | | |
| **Uzunmüddətli öhdəliklər** | | |
| Borc öhdəliyi | 1,167 | 3,267 |
| İcarə öhdəliyi | 6,258 | 7,208 |
| Təxirə salınmış vergi öhdəliyi | - | 24 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | 7,425 | **10,499** |
| **Qısamüddətli öhdəliklər** | | |
| Borc öhdəliyi | 6,264 | 9,099 |
| Ticarət və digər kreditor borclar | 4,044 | 2,550 |
| Cari mənfəət vergisi öhdəliyi | 639 | 1,625 |
| Digər vergi öhdəlikləri | 3,798 | 2,060 |
| İcarə öhdəliyi | - | 1,563 |
| **Cəmi qısamüddətli öhdəliklər** | **14,745** | **16,897** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **22,170** | **27,396** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | **43,681** | **47,051** |

| | | |
|---|---|---|
| **Gəlirlər** | **40,905** | **33,248** |
| **Xərclər və məsrəflər** | | |
| Əmək haqqı və ödənişlər | (21,803) | (14,690) |
| Köhnəlmə və amortizasiya xərcləri | (3,128) | (2,901) |
| İstifadə olunmuş xammal və xərc materialları | (2,847) | (3,093) |
| Subpodratçılar tərəfindən göstərilmiş xidmətlərin dəyəri | (1,628) | (94) |
| Kommunal xərclər | (685) | (508) |
| Birgə müəssisədəki investisiyanın dəyərsizləşməsi | (279) | - |
| İcarə xərcləri | (3) | (17) |
| Sair xərclər | (6,299) | (2,385) |
| **Cəmi xərclər və məsrəflər** | **(36,672)** | **(23,688)** |
| **Əməliyyat mənfəəti** | **4,233** | **9,560** |
| Faiz xərcləri | (1,902) | (2,444) |
| Sair gəlirlər | 426 | 729 |
| Birgə müəssisənin maliyyə nəticələrindəki pay | 291 | 890 |
| **Vergidən əvvəlki mənfəət** | **3,048** | **8,735** |
| Mənfəət vergisi xərci | (1,192) | (1,997) |
| **İL ÜZRƏ MƏNFƏƏT** | **1,856** | **6,738** |
| **İL ÜZRƏ CƏMİ MƏCMU GƏLİR** | **1,856** | **6,738** |

| | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|
| 2021-ci il yanvarın 1-nə qalıq | 4,072 | 9,456 | 13,528 |
| İl üzrə cəmi məcmu gəlir | - | 6,738 | 6,738 |
| Elan edilmiş dividendlər | - | (611) | (611) |
| 2021-ci il dekabrın 31-nə qalıq | 4,072 | 15,583 | 19,655 |
| İl üzrə cəmi məcmu gəlir | - | 1,856 | 1,856 |
| 2022-ci il dekabrın 31-nə qalıq | 4,072 | 17,439 | 21,511 |

| | | |
|---|---|---|
| **Əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | |
| Mənfəət vergisindən əvvəlki mənfəət | 3,048 | 8,735 |
| *Düzəlişlər:* | | |
| Köhnəlmə və amortizasiya | 3,128 | 2,902 |
| Birgə müəssisənin maliyyə nəticələrindəki pay | (291) | (890) |
| Ticarət və digər debitor borclar üzrə dəyərsizləşmə zərəri üçün ehtiyatın yaradılması/(bərpası) | 1,596 | (579) |
| Faiz xərcləri | 1,902 | 2,444 |
| Birgə müəssisədəki investisiyanın dəyərsizləşməsi | 279 | - |
| Sair qeyri-nağd əməliyyatlar | (484) | (460) |
| **Dövriyyə kapitalında dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | **9,178** | **12,152** |
| Ticarət və digər debitor borclarda artım | (4,434) | (410) |
| Mal-material ehtiyatlarında artım | (420) | (397) |
| Ticarət və digər kreditor borclarda artım/(azalma) | 1,494 | (1,974) |
| Vergi öhdəliklərində artım | 1,828 | 114 |
| **Dövriyyə kapitalında dəyişikliklər** | **(1,532)** | **9,485** |
| Ödənilmiş mənfəət vergisi | (3,013) | (628) |
| Borc öhdəlikləri üzrə ödənilmiş faizlər | (603) | (812) |
| İcarə öhdəliyi üzrə ödənilmiş faizlər | (992) | (894) |
| **Əməliyyat fəaliyyəti üzrə daxil olan xalis pul vəsaitləri** | **3,038** | **7,151** |
| **İnvestisiya fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | |
| Əsas vəsaitlərin alınması | (482) | (744) |
| Əsas vəsaitlərin satılmasından daxilolmalar | - | 227 |
| Alınmış dividendlər | 801 | 1,074 |
| Maliyyə icarəsinə əsasən icarəyə verilmiş aktivlərin satın alınması | - | (26) |
| **İnvestisiya fəaliyyəti üzrə daxil olan xalis pul vəsaitləri** | **319** | **532** |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | |
| Qrupun səhmdarlarına ödənilmiş dividendlər | - | (696) |
| Borcların ödənilməsi | (4,950) | (5,281) |
| İcarə öhdəliyinin ödənilməsi | (1,193) | (1,058) |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə istifadə edilən xalis pul vəsaitləri** | **(6,143)** | **(7,035)** |
| İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri | 2,967 | 2,319 |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | **181** | **2,967** |

# "Ekol Mühəndislik Xidmətləri" QSC-nin 2022-ci ilin yekunlarına aid illik hesabatı

Emitent Azərbaycan Respublikasının Mülki Məcəlləsinə müvafiq olaraq aşağıdakıları bildirir.

1. Emitentin adı- "Ekol Mühəndislik Xidmətləri" Qapalı Səhmdar Cəmiyyəti.

2. Təşkilati-hüquqi forması- Qapalı Səhmdar Cəmiyyəti.

3. VÖEN- 1600506211.

4. Dövlət qeydiyyatı- 17.04.2006-cı il, N 1106-T18-4083.

5. Emitentin hüquqi ünvanı-AZ1030, Bakı şəhəri, Nizami rayonu, Oqtay Vəliyev küçəsi 1.

6. Emitentin faktiki ünvanı- AZ 1025, Bakı şəhəri, Xətai rayonu, 1131-ci məhəllə, Babək prospekti 10"G".

7. Emitentin adında və ya təşkilati-hüquqi formasında dəyişiklik və digər hüquqi şəxsin yenidən təşkili yolu ilə yaradılması barədə məlumat – dəyişiklik yoxdur, digər hüquqi şəxsin yenidən təşkili yolu ilə yaradılmayıb.

8. Emitentin hesabat ili ərzində yaranmış və ləğv edilmiş filialları və nümayəndəlikləri haqqında məlumat – filiallar və nümayəndəliklər yaratmayıb və ləğv etməyib.

9. Emitent şirkətlər qrupunun bir hissəsi olduğu təqdirdə məlumat – olmayıbdır.

10. Emitentin hesabat ili ərzində yaranmış və ləğv edilmiş törəmə cəmiyyəti haqqında məlumat – törəmə cəmiyyət yaratmayıb və ləğv etməyib.

11. Emitentin lisenziya və ya icazəyə malik olması barədə məlumat:

11.1 İN/L-1679/2016 N-li 28.07.2016-cı il tarixli, "Toksiki istehsalat tullantılarının utilizasiyası və zərərsizləşdirilməsi" haqqında müddətsiz lisenziyası.

11.2 İN/L-1643/2016 N-li 21.07.2016-cı il tarixli, "Təhlükəli yüklərin nəqliyyat vasitəsi ilə daşınması (3-cü sinif təhlükəli yüklər)" haqqında müddətsiz lisenziyası.

11.3 EL-543/2022 N-li və EL-543/2022/1 N-li 08.08.2022-ci il tarixli "Özəl tibb fəaliyyəti" (epidemiologiya, dezinfeksiya, dezinseksiya və deratizasiya) haqqında müddətsiz lisenziya və lisensiya əlavəsi.

12.Emitentin məşğul olduğu fəaliyyət istiqamətləri – xidmətlərin göstərilməsi.

Emitentin təklif etdiyi xidmətlər- neftlə çirklənmiş torpaqların rekultivasiyası, bioremediasiyası, landşaftın bərpası, yaşıllıqların salınması və s. aqrotexniki xidmətlərin göstərilməsi, sənaye axıntı sularının təmizlənməsi, neftşlamın emalı (zərərsizləşdirilməsi), ərsin parafininin sudan və mexaniki qarışıqlardan təmizlənməsi, kompleks ekoloji monitorinqin aparılması və laborator xidmətlərin göstərilməsi, ekoloji normativ-texniki sənədlərin işlənib hazırlanması, təmizlik, dezinfeksiya, deratizasiya və dezinseksiya xidmətlərinin (işlərinin) yerinə yetirilməsi.

13.Emitentin işçilərinin sayı və onun rüblük dinamikası:

2023-cü il yanvarın 1-nə işçilərin ümumi sayı – 813 nəfər.

13.1. 1-ci rüb ərzində – qəbul olunub – 204 nəfər, işdən azad olunub – 17 nəfər.

13.2. 2-ci rüb ərzində – qəbul olunub – 42 nəfər, işdən azad olunub – 71 nəfər.

13.3. 3-cü rüb ərzində – qəbul olunub – 10 nəfər, işdən azad olunub – 18 nəfər.

13.4. 4-cü rüb ərzində – qəbul olunub – 5 nəfər, işdən azad olunub – 9 nəfər.

14.Emitentin idarəetmə orqanları haqqında məlumat:

14.1 Ali idarəetmə orqanı səhmdarlarının ümumi yığıncağı;

14.2 Direktorlar şurası:

• sədr- İsmayılov Mikayıl İsmayıl oğlu

• üzvlər- Həsənov Samir Cabir oğlu
Gülməmmədov Nicat Bayraməli oğlu
Qurbanlı Mustafa Mübariz oğlu
Ələkbərov Vüqar Yəhya oğlu

14.3. İcra orqanı - Baş direktor Əliyev Ramil Cavanşir oğlu.

15.Emitentin səhmdarlarının sayı – 2 səhmdar – hüquqi şəxslər- SOCAR və "Lancer Services S.A" Şirkəti.

16.Emitentin nizamnamə kapitalının 5%-i və daha artıq həcmdə səsli səhmlərə malik olan səhmdarları:

16.1.SOCAR – 51,0019%, VÖEN – 9900003871, 2 076 899,37 manat dəyərində, 6923 adi, sənədsiz səhm. Olduğu yer- Azərbaycan Respublikası, Bakı şəhəri, AZ1029, Heydər Əliyev prospekti 121.

16.2. "Lancer Services S.A" Şirkəti – 48,9981%, 1 995 300,63 manat dəyərində 6651 adi, sənədsiz səhm. Olduğu yer- Panama Respublikası.

17.Nizamnamə kapitalında emitentin payı 5%-dən az olmayan hüquqi şəxslər:

17.1."Ekol Veyst Management" Məhdud Məsuliyyətli Cəmiyyəti (əvvəlki "AAS-Ekol" MMC). Hüquqi ünvanı – AZ 1025, Bakı şəhəri, Xətai rayonu, 1131-ci məhəllə, Babək pospekti 10"G". Olduğu yer – AZ1154, Bakı şəhəri, İsmayıl Hidayətzadə küçəsi 51A. VÖEN – 1401740701. Nizamnamə kapitalında emitent 100%-in, yəni 250 000,00 (iki yüz əlli min) manat payın sahibidir.

17.2."İnterximservis" Məhdud Məsuliyyətli Cəmiyyəti. Olduğu yer- Bakı şəhəri, AZ1078, H.Zərdabi küçəsi 78v.

VÖEN-1601812611. Nizamnamə kapitalında emitent 100%-in, yəni 10,00 manat payın sahibidir.

18.Emitentin səhmdarlarının hesabat ili ərzində keçirilmiş yığıncaqları barədə məlumat:

18.1. Yığıncaqların keçirilmə yeri – AZ 1025, Bakı şəhəri, Xətai rayonu, 1131-ci məhəllə, Babək pospekti 10"G".

18.2.Səhmdarların 2022-ci il sentyabrın 27-də ümumi yığıncaqda qəbul olunmuş qərarı:

"QSC-nin 2021-ci ilin nəticələrinə görə illik maliyyə hesabatları təsdiq edilsin; QSC-nin 1 080 816,58 manat (bir milyon səksən min səkkiz yüz on altı manat, 58 qəpik) məbləğində xalis mənfəəti "Ekol Mühəndislik Xidmətləri" QSC-nin inkişafına yönəldilsin."

19.Emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları haqqında məlumat:

19.1.investisiya qiymətli kağızın növü və forması- adi, sənədsiz səhm.

19.2.İnvestisiya qiymətli kağızları – 13 574 ədəd, qiymətli kağızın nominal dəyəri 300 manat.

20.Qiymətli kağızların miqdarı və nominal dəyəri:

20.1. 2020-ci il yanvarın 1-nə ümumi miqdarı 13 574 səhm.

21.Səhmlərin dövlət qeydiyyat nömrəsi və tarixi:

21.1. 24 fevral 2016-cı il, AZ100100881.

22.Səhmlərin məcmu nominal dəyəri – 4 072 200 manat (300 x 13 574= 4 072 200).

23.Yerləşdirilmiş səhmlərin miqdarı- 13 574 ədəd.

24.Yerləşdirilmiş səhmlərin vəziyyəti- başa çatmışdır.

25.Emitent tərəfindən bağlanmış xüsusi əhəmiyyətli əqdlər barədə məlumat – xüsusi əhəmiyyətli əqdlər bağlanmamışdır.

26.Emitent tərəfindən aidiyyəti şəxslərlə bağlanmış əqdlər barədə məlumat – aidiyyəti şəxslərlə əqdlər bağlanmamışdır.

27.Emitentin yığıncağının protokolu- 2023-cü il iyunun 25-də qəbul olunmuş qərar:

"QSC-nin 2022-ci ilin nəticələrinə görə yekun maliyyə hesabatları təsdiq edilsin."

28. " Açıqlama mənbəyi – "Xalq qəzeti".

Əlaqə tel.: (+99450)276 78 40.

# "Pirallah-Çörək" ASC səhmdarlarının nəzərinə!

26 avqust 2023-cü il saat 11.00-da "Pirallah-Çörək" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı Bakı şəhəri, Xətai rayonu, 8 noyabr prospekti 23, "AMAY" ticarət mərkəzinin 3-cü mərtəbəsində 10 nömrəli otaqda keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. Cəmiyyətin ləğvetmə balansının təsdiq olunması.

2. "Pirallah-Çörək" ASC-nin əmlakının natura və ya pul şəklində bölüşdürülməsi.

Gündəlikdəki məsələlərin materialları ilə Bakı şəhəri, Xətai rayonu, 8 noyabr prospekti 23, "AMAY" ticarət mərkəzinin 3-cü mərtəbəsində 10 nömrəli otaqda tanış olmaq mümkündür.

Əlaqə nömrəsi -050-354-14-54.

Bütün səhmdarların iştirakı vacibdir.

***Ləğvetmə komissiyası***

# "Azərsu" Açıq Səhmdar Cəmiyyəti

## Azərbaycan Respublikasının dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) çərçivəsində "Dəniz suyunun duzsuzlaşdırılması ilə əlaqədar məsləhətçi şirkətin cəlb olunması" predmeti üzrə texniki-iqtisadi əsaslandırma və layihə tapşırığının hazırlanması, layihənin icrası ilə bağlı digər məsləhət xidmətlərinin satın alınması məqsədilə

# TƏKLİFLƏR SORĞUSU ELAN EDİR

Təkliflər sorğusunda iştirak etmək istəyən iddiaçılar aşağıdakı ünvana (Bakı şəhəri, Moskva prospekti 67, "Azərsu" ASC-nin satınalmaların təşkili və müqavilələrin idarə olunması şöbəsinə (əlaqələndirici şəxs- Abışev Murad Çingiz oğluna, telefon: + 99 412 431 47 67/87 – daxili 1087 E-mail: murad.abishev@azersu.az və Musayev Məmmədyar Ağa oğluna, telefon: +99 412 431 47 67 – daxili 2288, E-mail: mammadyar.musayev@azersu.az müraciət edə bilərlər.

İddiaçılar imzalanıb möhürlənmiş təkliflərini 4 avqust 2023-cü il saat 16.00-dan gec olmamaq şərtilə təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan təkliflər baxılmadan geri qaytarılacaqdır.

Təkliflər "Azərsu" ASC, Bakı şəhəri, Moskva prospekti 67 nömrəli ünvanda 7 avqust 2023-cü il saat 16.00-da açılacaqdır. İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

SON SƏHİFƏ
Xalqın qəzeti!
# Xalq qəzeti
№ 151 (30267) 21 iyul 2023-cü il, cümə
veb-sayt: www.xalqqazeti.az

İdman xəbərləri

## “Neftçi”nin Dünya Qadın Seriyasının növbəti oyunu



3x3 basketbol üzrə “Neftçi” komandası Dünya Qadın Seriyasının Fransanın Bordo şəhərindəki mərhələsində dördəbir finalda Kanada kollektivi ilə görüşüb.

Qarşılaşma komandamızın 19:15 hesablı məğlubiyyəti ilə başa çatıb.

Qeyd edək ki, “ağ-qaralar” C qrupunda əvvəlcə Fransa millisinə 12:16 hesabı ilə məğlub olsa da, Polşa seçməsinə qalib gələrək (14:13) mərhələ adlayıb.

Xatırladaq ki, “Neftçi” bundan əvvəl Şuşa və Netanya (İsrail) mərhələlərində qalib adını qazanıb.

11 mərhələdən sonra “Neftçi” ümumi hesabda 3-cü (403 xal), Azərbaycan komandası isə 19-cu yerdədir (122).

## Azərbaycan millisinin FİFA reytinqində mövqeyi dəyişməyib

**FIFA-nın iyul ayı üçün reytinqi açıqlanıb. Reytinq sıralamasında Azərbaycan millisinin mövqeyi dəyişməyib. Belə ki, yığmamız 1143 xalla 121-ci sırada qalıb.**



Türkiyə yığması da 41-ci pillədəki mövqeyini qoruyub. Qardaş ölkənin komandasının aktivində 1484 xal var.

İlk sırada əvvəlki kimi, DÇ-2022-nin qalibi Argentina yığması 1843 xalla liderlik edir.

## Basketbolçularımız Avropa çempionatının yarımfinalında

**Andorrada 16 yaşlı qızlar arasında keçirilən basketbol üzrə Avropa çempionatı “C” divizionunda millimizin qrup oyunları yekunlaşıb.**

B qrupunda qərarlaşmış millimiz, qrupun sonuncu oyununda Albaniya seçməsini 69-64 hesabı ilə məğlub edib və qrup lideri kimi Avropa çempionatının yarımfinalına vəsiqə qazanıb. Qızlardan ibarət millimizin yarımfinalda rəqibi Gürcüstan yığması olacaq.

Oyun iyulun 22-də keçiriləcək.

*L.SABİRQIZI, “Xalq qəzeti”*



Texnologiya yenilikləri



## Süni zəka jurnalistləri də əvəz edəcəkmi?

**Süni intellekt hər sahədə olduğu kimi mediada da özünü göstərməkdə davam edir. Belə ki, “Google” daxili sınaqdan keçirdiyi “Genesis” kod adlı süni intellekti təqdim edib.**

Bildirilir ki, texnologiya nəhəngi yeni proqramı “The Times”a, “Washington Post” və “News Corp”un rəhbərlərinə göstərib. “Genesis” ona ötürülən istər cari hadisələr, istərsə də digər növ məlumatlardan yeni mətn yarada bilir.

Lakin “Google”un bu proqramı ictimaiyyət tərəfindən narazılıqla qarşılanıb. Nyu -York Şəhər Universitetinin jurnalistika professoru Jeff Jarvis bu barədə qeyd edib: “Bütün süni intellekt proqramları uydurma məlumat istehsal etməyə meyillidir. Mediada bu cür proqramların “nəzarətsiz” istifadə ciddi nəticələrə səbəb ola bilər.”

Qeyd edək ki, şirkətin “Genesis”i nə zaman istifadəyə verəcəyi barədə məlumat yoxdur.

*Əfsanə ƏHƏDLİ, “Xalq qəzeti”*

## “İkiüzlü” ulduz kəşf edilib

**Alimlər ilk dəfə olaraq iki əksüzlü spontan inkişaf edən ulduz kəşf ediblər. Belə ki, ulduzun kimyəvi tərkibi araşdırılan zaman məlum olub ki, onun bir tərəfi hidrogendən, digər tərəfi isə tamamilə heliumdan ibarətdir.**



Məlumata görə, qəribə görünüşlü ulduzun helium tərəfi Günəş kimi çınıntılı, hidrogen tərəfi isə hamardır. Bu qəribə ulduz San Dieqo yaxınlığındakı rəsədxanadan səmanı görüntüləyən “Zwicky Transient Facility” (ZTF) qurğusu tərəfindən aşkarlanmışdır.

Min işıq ilindən çox uzaqda olan obyektin rəsmi elmi adı “ZTF J203349.8+322901.1”dir. İkiüzlü olduğu aşkar edildikdən sonra ulduz “Janus” adlandırılmışdır. Mifoloji keçidlər tanrısı olan “Janus”a da iki üzü olduğu üçün bu ad verilib.

*Aytən NƏCƏFOVA, “Xalq qəzeti”*

Maraq dünyamız

## Atomların boşluğu çıxarılsa, dünya şəkər parçasına sığar

**Əslində, atomun 99,9999 faizdən çoxu boş məkandır. Atom elektron buludları ilə əhatə olunmuş kiçik, sıx nüvədən ibarətdir. Nüvənin özü isə protonlardan və neytronlardan təşkil olunub.**




Elektron -1 elektrik yükünə, proton +1 elektrik yükünə malikdir, neytron elektrik yükü daşımır. Bütün elementlərin atomları eyni elektron, eyni proton və eyni neytronlardan yaranmışdır. Lakin elementlər atomlarındakı protonların sayı ilə fərqlənirlər. Nüvədəki protonların sayı elementin atom nömrəsini təşkil edir. Proton və neytron ikisi birlikdə nukleyin, yəni “nüvəyə (ingilis: nucleus) aid olan” adlanırlar.

Atomlarda boşluq daha çox yer tutur. Bunun səbəbi elektronların dalğalı hərəkət etməsidir. Elektronlar bir nöqtədə qalmır, onlar orbitin istənilən yerində ola bilər. Və buna görə də çox yer tutur.

Bütün atomlarda boşluq çıxarılsa dünya bir şəkər parçasına sığar.

## Rekordçu kimyaçı



**İsveç kimyaçısı Karl Şeyele kəşf etdiyi kimyəvi elementlərin sayına görə rekordçu adlandırıla bilər. Onun sayəsində biz volfram, barium, molibden, manqan, xlor, flüor və oksigenin varlığından xəbər tutmuşuq. Şeyele 1772-ci ildə havanın oksigen və azotdan ibarət olduğunu müəyyən etmişdir.**

Onun həmyerliləri Karl Mosander və Yakob Berzelius, ingilis Humfri Davi və fransız Paul Lekokde Buabodran izləyir. Bu kimyaçıların hər biri dörd element kəşf etdi. Yuxarıdakı alimlərin payı hazırda məlum olan bütün elementlərin təxminən 1/4 hissəsini təşkil edir.

Kimya tarixində 250 addan ibarət kimyəvi elementlərin saxta kəşflərinin siyahısı var. Beləliklə, 100-dən çox nadir torpaq elementinin kəşfi elan edildi, onlardan yalnız 15-i həqiqətə uyğundur.

## “Qəzet” İtaliyada qəpik adı olub

**Dövriyyədə olan pulların da qeyri-adi adları olub. Bu pullardan biri Venesiyada XVI əsrdə sikkə kimi istifadə olunub. O, “qəzet” adlanırdı. Üstəlik, bu ad əvvəlcə sikkə üçün xüsusi olaraq ortaya çıxmışdı və yalnız sonra çap nəşrlərinə keçdi. Bu ona görə baş verdi ki, bir qəzet üçün belə bir qəpik ödənilirdi.**



“Qəpik” sözü isə İvan Qroznının dövründə ortaya çıxıb. O zaman əlində nizə (копье) olan knyazların təsviri olan gümüş sikkələr zərb edilirdi. “Nizə pulu” da buradan yaranıb..

Kağız pullar, adına baxmayaraq, ümumiyyətlə, 100 faiz pambıqdan hazırlanmış, aşınmaya davamlı material kimi hazırlanır. Cins şalvarın parçası da xalis pambıqdır.

*P.ƏFƏNDİ, “Xalq qəzeti”*

Sağlamlıq

## İnsana can verən 5 dirilik suyu

***İnsan hər yeni günə ona enerji və təravət verən, bütün daxili orqanların və sistemlərin işini aktivləşdirən bir stəkan içki ilə başlamalıdır. Qastroenteroloq İlya Nevrozov sağlamlığı qoruyan 5 içkinin adını açıqlayıb.***



**Su.** Oyandıqdan dərhal sonra otaq temperaturunda bir stəkan su bir çox xəstəliklərin və hətta depressiyanın qarşısını alır. Bu vərdiş sayəsində bədən daha incə olur, əhval-ruhiyyə yaxşılaşır. Bundan əlavə, su maddələr mübadiləsini aktivləşdirir, toksinləri çıxarır və hipertoniyanın qarşısını alır.

**Alma sirkəsi ilə su.** Bu qarışım bədəndəki pH səviyyəsini normallaşdırmağa kömək edir. Nevrozovun fikrincə, içki mədə-bağırsaq traktının işini aktivləşdirir. O bildirir ki, modelyerlər günə belə su ilə başlayır.

**Limonlu su.** Bir neçə damcı təzə sıxılmış limon suyu sağlamlığı əhəmiyyətli dərəcədə yaxşılaşdıra bilər. Məsələn, immun sistemini gücləndirir, böyrək daşlarının əmələ gəlməsinin qarşısını alır, zəhərləri çıxarır, həzmi yaxşılaşdırır, yağları parçalayır, dəri rəngini yaxşılaşdırır və s.

**Zəncəfilli su.** Belə su yalnız səhər tezdən oyanmağa deyil, həm də iş enerjisini artırmağa kömək edir. Axşamdan doğranmış zəncəfilin üzərinə qaynar su tökülür və səhərədək qalır. Su, yuxudan oyanan zaman içməyə hazır olur.

**Kərəviz suyu.** Səhəri həftədə ən azı 3 dəfə kərəviz şirəsi ilə açanlar, bir aydan sonra bədənin incəldiyini, dərinin təmiz olduğunu, mədə-bağırsaq traktının saat mexanizmi kimi işlədiyini görərlər.

*Z.HÜSEYNLİ, “Xalq qəzeti”*

Proqnoz

## Aranda – isti, dağda – yağış



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən iyulun 21-də Bakıda və Abşeron yarımadasında yağmursuz keçəcək. Cənub-şərq küləyi əsəcək. Gecə 20-25°, gündüz 31-36° isti olacaq. Atmosfer təzyiqi 759 mm civə sütunundan 756 mm civə sütununa enəcək, nisbi rütubət gecə 60-70, gündüz 35-40 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 25-26° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 26-27° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 18-23° , gündüz 32-37° , dağlarda gecə 12-17°, gündüz 17-22° isti olacaq.

*Q. QASIMOV, “Xalq qəzeti”*

## Türk rejissorun foto sərgisi



**Rejissor Nuri Bilgənin İstanbul Müasir Muzeyində sərhədləri və mədəniyyətləri aşan, heyranedici fotoqrafiya üslubu ilə sənətsevərləri valeh edən sərgisi açılıb.**

“Başqa bir yerdə” adlanan, rejissorun füsunkar əsərlərini bir araya gətirən sərgi onun müasir sənət dünyasına olan marağını və sevgisini göstərir. Rejissor Türkiyə kino dili ilə Hindistan, Gürcüstan, Çin, Mərakeş və Rusiya da daxil olmaqla müxtəlif coğrafiyalarda çəkilmiş heyrətamiz portretlər silsiləsini təqdim edərək, tamaşaçılarda sərgi haqqında düşünmək tələbatı yaradır.

Türkiyənin müstəqil fotoqrafiya saxlancı məkanı olan İstanbul Müasir Muzeyinin respublikanın ilk illərinə aid tarixi əhəmiyyətli fotoşəkillər də daxil olmaqla 10 mindən çox əsərdən ibarət geniş kolleksiyası var. Muzeyin yeni orijinal binası öz nəslinin ən tanınmış memarlarından biri, ətraf mühiti dərindən dərk edən, yenilikçi dizaynları ilə tanınan italyan memar Renzo Piano tərəfindən dizayn edilib.

*F. HÜQUQQIZI, “Xalq qəzeti”*

**✓ 2020-ci il yanvarın 23-də DƏDRX-nin 9 saylı Qəbələ Ərazi İdarəsi tərəfindən “ULDUZ F.M” MMC-nin adına verilmiş reyestr nömrəsi 407012001315, 407012001266, 407012001460 və 407012001267 olan dörd ədəd “Torpaq sahəsinin planı və ölçüsü” sənədi itmişdir.**

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4602
SİFARİŞ 1791
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır
00:00